www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12-14 avqust 2017-ci il Şənbə № 168 (6782) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda çörək almağa düşən 12 yaşlı uşaq yoxa çıxdı

yazısı səh.14-də

**Gündəm**

### Bakı ilə Naxçıvanı birləşdirən Mehri dəhlizini açmaq təklifi



**Düşmən şokda:** ikinci Qarabağ müharibəsi Zəngəzurda davam edə bilər

yazısı səh.5-də

### Avtoqəza barışıqları - qan alveri, humanizm, yoxsa milli ənənələr?

yazısı səh.3-də

### Valideynlərin məktəbli bazarlığı dərdi...

yazısı səh.4-də

### Müdafiə naziri Zakir Həsənov Moskvaya getdi

yazısı səh.11-də

### “Tramp artıq respublikaçılar üçün ağır yükə çevrilir” - politoloq

yazısı səh.9-da

### Bu il ən çox bahalaşan məhsullar - manat sabitdirsə, qiymətlər niyə qalxır?

yazısı səh.10-da

### “Bank sektorunun vəziyyəti gələn ildən yaxşılaşacaq” - ekspert

yazısı səh.10-da

### Danışıq xətrinə danışıq = işğalı legitimləşdirmək!

yazısı səh.11-də

### İşdə yaxşı nəticə gözləyənlər - geyiminizi doğru seçin...

yazısı səh.12-də

### Əcnəbi oliqarxlar uşaqlarını necə tərbiyə edir - məmurlar üçün nümunə...

yazısı səh.13-də

### Gənc müğənnini öldürən meningit xəstəliyi haqqında bilmədiklərimiz

yazısı səh.15-də

## Din və qan qardaşımızdan etibarsız gediş

# TEHRANDAN 2 ANTİTÜRK QƏRARI - ABŞ SANKSİYALARI AZƏRBAYCANI DA “VURDU”...

Konqresin İran və Rusiya əleyhinə sərt sanksiyaları cənub qonşumuzu da hərəkətə gətirdi və... yada dərhal Güney amili düşdü; Ruhaninin yeni hökumətdə azərbaycanlılara portfel verməməsi və parlamentdə türkdilli fraksiyanın ləğvinin səbəbi...



yazısı səh.8-də

## Azərbaycandakı ABŞ səfirliyində “atom bombası” müzakirələri

**Eyyub Hüseynovdan hadisə kimi müsahibə:** “Onlara bildirdim ki, GMO atom bombasına bərabər silahdır, çünki...”

yazısı səh.6-da



*Natiq Cəfərli:*

### “Dövlətin birbaşa iştirakı olmadan problemli kreditlərlə bağlı məsələ həllini tapmayacaq”

yazısı səh.3-də



*Bayram Səfərov:*

### “Şuşasız istirahət mənə halal deyil”

yazısı səh.7-də



*Dünya çempionu olan Ramil Quliyev:*

### “Azərbaycana qayıtmağa hazıram”

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 168 (6782) 12 avqust 2017



## Prezident İlham Əliyev Ramin Quliyevi təbrik etdi - “Səninlə fəxr edirik”

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yüngül atletika üzrə dünya çempionu Ramil Quliyevə təbrik məktubu ünvanlayıb.**

“Report”un xəbərinə görə, təbrik mətnində deyilir:

“Əziz Ramil!

İlk növbədə səni yüngül atletika üzrə dünya çempionu adını qazanmağın münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Qeyd etmək istərdim ki, tarixdə ilk dəfə olaraq azərbaycanlı idmançı yüngül atletika üzrə dünya çempionu olub. Xüsusilə sevindirici haldır ki, sən qələbədən sonra Azərbaycan və Türkiyə bayraqlarını qaldırdın. Bu, onu göstərir ki, sən öz xalqına bağlı, vətənpərvər insansan.

Sən bu gün Türkiyəni təmsil edirsən. Ancaq idmanda ilk addımlarını Azərbaycanda atmısan.

Bu qələbə münasibətilə Türkiyəni də təbrik edirəm. Sənin qələbən, eyni zamanda, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığının növbəti təzahürüdür. Biz Azərbaycanda səninlə fəxr edirik.

Sənə idmanda yeni qələbələr arzulayıram".



## ABŞ Putinin Abxaziyaya səfərini beynəlxalq prinsiplərə zidd hesab edir

**Amerika Birləşmiş Ştatları hesab edir ki, prezident Putinin Rusiya tərəfindən işğal olunmuş Abxaziyaya səfəri Rusiaynın da iştirakçısı olduğu Cenevrə Beynəlxalq Müzakirələrinin prinsiplərinə uyğun deyil. Bu barədə ABŞ Dövlət Departamentinin sözçüsü Hizer Noletin bəyanatında deyilir.**

O bildirib ki, Birləşmiş Ştatlar Gürcüstanın ərazi bütövlüyünü və beynəlxalq müstəvidə tanınmış sərhədlərini tam dəstəkləyir və Rusiyanın Gürcü bölgələri olan Abxaziyanın və Cənubi Osetiyanın tanımasını qəbul etmir.

“Birləşmiş Ştatlar Rusiyanı öz hərbi qüvvələrini 2008-ci ilin atəşkəs razılığına əsasən müharibədən öncə yerləşdiyi mövqeylərinə cəkməyə, Abxaziyanın və Cənubi Osetiyanın tanınması qərarını dəyişməyə çağırır”, bəyanatda deyilir.

Rusiya prezidenti Vladimir Putin avqustun 8-də Abxaziyaya səfər edib. Onuin səfəri Rusiyanın Gürcüstana qarşı 2008-c il müharibəsinin başlamasının 9-cu ildönümünə təsadüf edir.

2008-ci il müharibəsi Rusiyanın Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanıması ilə yekunlaşmışıb.

Putinin beynəlxalq birlik tərəfindən Gürcüstanın suverenliyində olan ərazisi kimi tanıdığı Abxaziyaya səfəri Ukrayna və Gürcüstan prezidentləri tərəfindən də qınanılıb.

Ukraynanın dövlət başçısı Pyotr Poroşenko və Gürcüstan prezidenti Giorgiy Margvelaşvili ilə telefon danışığında Gürcüstana qarşı rus təcavüzünün 9-ci ildönümündə gürcü xalqı ilə həmrəyl olduğunu bildirib. Poroşenko görüşdə Ukraynanın Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyini və dəstəkləməkdə davam edəcəyini vurğulayıb (“Amerikanın səsi”).

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Nazir qardaşının tutdurmaq istədiyi sahibkarın işində gözlənilməz qərar

## Prokurorun 9 il cəza istədiyi Samir Nəbiyevə hökm oxunacağı gözlənildiyi halda məhkəmə istintaqının təzələnməsi haqda qərar verdi

**Müdafiə sənayesi naziri Yavər Camalovun qardaşı Əlikram Camalova qarşı dələduzluq etməkdə təqdirləndirilən Samir Nəbiyevin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Samir Nəbiyevin məhkəməsində gözlənilməz qərar elan edilib.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsinə hakim Şəkər Məmmədovanın sədrliyi ilə keçiriləcək prosesdə məhkəmədə S.Nəbiyevin vəkili Ceyhun Yusifov çıxış edib.



O, məhkəmə istintaqının təzələnməsini məhkəmədən xahiş edib.

Məhkəmə müşavirədən qayıtdıqdan sonra sensasiya baş verib; hökm elan edəcəyi, Nəbiyevə cəza veriləcəyi gözlənildiyi halda, vəkilin vəsatəti təmin edilib.

İşə məhkəmə istintaqı təzələnməklə yenidən baxılacaq. Məhkəmə avqustun 16-na təyin edilib.

Bildirək ki, prokuror Samir Nəbiyevin 9 il müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi.

Qeyd edək ki, S.Nəbiyev müdafiə sənayesi naziri Yavər Camalovun qardaşı Əlikram Camalova birgə biznes qurmaq təklifi edib.

S.Nəbiyev Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq; külli miqdarda törədildikdə) maddəsi ilə ittiham olunur.

İttihama görə, S.Nəbiyev Ə.Camalovdan icarəyə götürüb işlətdiyi Nəsimi rayonu, Ceyhun Hacıbəyli küçəsində yerləşən “Brend Elektrik” elektrik avadanlıqları satışı mağazasına yatırım etməyi təklif edib. Qazancı isə yarı bölləcəklərmiş.

Ə.Camalov onunla razılaşıb və Nərimanov rayonu, Ağa Nemətulla küçəsində yerləşən ofisdə S.Nəbiyevə 2015-ci il noyabrın 3-də 18 min manat, 2016-cı il fevralın 1-də isə 3 min 993 manat (2500 dollar) pul verib. Ancaq S.Nəbiyevin devalvasiyadan sonra biznesi iflasa uğrayıb və şərikinin pulunu qaytara bilməyib.

Bildirək ki, nazir qardaşı Əlikram Camalov “Hacı Camalxan” kəndli fermer təsərrüfatının təsisçisi və sahibidir.

**Vəkil Ceyhun Yusifov isə son çıxışında bildirib ki, nazir qardaşı Samir Nəbiyevə 18 min manatı sələmə verib.**

**❑ İlkin MURADOV**



## Eldar Sultanovun bacısı oğlu yol qəzasında dünyasını dəyişib

**Abşeronda piyadanın ölümü ilə nəticələnən yol qəzası baş verib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, avqustun 10-da saat 10:00 radələrində Abşeron rayonunun Saray qəsəbəsində yerli sakin Vüqar Cavadov idarə etdiyi “Hyundai” markalı avtomobillə yol kənarında duran Sumqayıt şəhər sakini Ramil Əliyevi vurub. Nəticədə piyada hadisə yerində ölüb.

Abşeron RPİ tərəfindən araşdırma aparılır.

APA-nın əldə etdiyi məlumata görə, qəzada dünyasını dəyişən Ramil Əliyev Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanovun bacısı oğludur.

**Allah rəhmət eləsin!**

## Uşaq oğurluğu ilə bağlı gizli məhkəmə təxirə salındı

**Xətai rayon Məhkəməsində hakim Bəxtiyar Məmmədovun sədrliyi ilə Azərbaycan vətəndaşı Davud Bağırovun Dubayda yaşayan Qırğızstan vətəndaşı Merim Beishekeyevaya və onun nümayəndəsi Abdulla Əfəndizadəyə qarşı xüsusi ittiham qaydasında verilən şikayəti üzrə məhkəməyə hazırlıq iclası keçirilib. Hər iki şəxsin CM-in 147-ci(böhtan) maddəsi ilə təqsirli bilinib barələrində cinayət işinin başlanması istənilir. Avqustun 11-də baş tutan iclasa Qırğızstanın Azərbaycandakı səfirliyinin nümayəndələri də qatılıblar.**

İclasda A.Əfəndizadə məhkəməyə prosesin təxirə salınması ilə bağlı vəsatət təqdim edib. Bildirib ki, proses haqda ona qanunda nəzərdə tutulan qaydada məlumat verilməyib, o, özünün və müvəkkilinin xüsusi ittiham qaydasında məhkəməyə verilməsi haqda mətbuatdan oxuduğunu hakimin diqqətinə çatdırıb. Yerindəcə müşavirə keçirən hakim xüsusi ittihamçısının vəkilinin fikirlərini nəzərə alaraq iclası avqustun 23-nə qədər təxirə salıb.

Xüsusi ittihamçı D.Bağırov hesab edir ki, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay Əmirliyində bank sektorunda çalışan Qırğızstan vətəndaşı Merim Beishekeyeva və onun nümayəndəsi A.Əfəndizadənin mətbuatdakı çıxışları onun və yaxınlarını təhqir edib. Merim Beishekeyeva və onun nümayəndəsi A.Əfəndizadə mətbautdakı çıxışlarında Davud Bağırovu azyaşlı uşağı Dubaydan Türkiyəyə, oradan isə qanunsuz olaraq Azərbaycana gətirməkdə ittiham ediblər.

Merim Beishekeyeva 2015-ci ildə övladı oğurlanandan sonra Dubayın hüquq-mühafizə orqanlarına müraciət edib. Bundan sonra uşaq oğurluğu faktına görə Dubay Prokurorluğunda cinayət işi başlanıb. M.Beishekeyeva öyrənib ki, azyaşlı övladı Dubaydan Türkiyəyə, oradan isə Azərbaycana gətirilib. Buna görə də o, 2017-ci ilin fevralında Bakıda olub, övladının oğurlanması ilə bağlı ölkə başçısına, baş prokurora, Milli Məclisin sədrinə, ombudsmana AQUP DK-nın sədri Hicran Hüseynovaya müraciətlər ünvanlayıb. Merim Beishekiyevanın nümayəndəsi hüquqşünas Abdulla Əfəndizadədir. O, uşaq oğurluğu ilə bağlı mətbuatda dəfələrlə çıxışlar edib və iş üzrə Azərbaycan məhkəmələrində bir neçə iddia qaldırıb. Belə iddialardan biri üzrə avqustun 22-də apelyasiya instansiyasında proses keçiriləcək.

**Qeyd edək ki, D.Bağırov bundan əvvəl hər iki şəxsin barəsində Nizami Rayon Məhkəməsinə müraciət etmişdi. Həmin vaxt da məhkəmədən xüsusi ittham qaydasında məhkəməyə vermiş şəxslərə - Merim Beishekeyevaya və onun nümayəndəsi Abdulla Əfəndizadəyə məlumat verilməmişdi. A.Əfəndizadə məhkəmələrin bu şəkildə aparılmasının qanunsuzluğu ilə bağlı Ədliyyə Nazirliyinə, Məhkəmə Hüquq Şurasına və ölkə rəhbərliyinə şikayətlər yazıdğını açıqlayıb.**

**❑ E.MƏMMƏDƏLİYEV**

***P.S.*** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*




## “Azərbaycana qayıtmağa hazıram” - Ramil Quliyev

**“Prezident İlham Əliyevə mənə ünvanladığı təbrikə görə dərin təşəkkürümü bildirirəm. Bu, mənim üçün qürurvericidir”.**

Musavat.com-un AzVision.az-a istinadən məlumatına görə, bunu Londonda keçirilən yüngül atletika yarışında dünya çempionu olan Ramil Quliyev deyib.

Türkiyəni təmsil edən atlet “Azərbaycana qayıtmaq istərdinizmi?” sualına “Əgər istəsələr, mən hər zaman qayıtmağa hazıram”- deyə cavab verib.

“Bu, təkcə mənim yox, bütün Azərbaycan xalqının qələbəsidir. Çox sevinirəm. Bilirdim ki, xalqım məni dəstəkləyəcək. Bunu hiss edirdim. Mənə dəstək olan hər kəsə təşəkkür edirəm. Mən azərbaycanlıyam. Azərbaycan və Türkiyə bir millət iki dövlətdir. Ona görə də hər iki dövlətin bayrağını dalğalandırdım. Bu, mənim üçün fəxrdir”.

Qeyd edək ki, Türkiyəni təmsil edən azərbaycanlı idmançı Ramil Quliyev Londonda keçirilən yüngül atletika yarışında dünya çempionu adını qazanıb. Ramilin qələbəsi Türkiyədə böyük sevinclə qarşılanıb. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Azərbaycan prezidenti İlham Əliyev və digər dövlət məmurları azərbaycanlı idmançını qazandığı qələbə münasibətilə təbrik ediblər.

## Azərbaycanlı boksçu nazirliyin qarşısında özünü yandırmaq istədi

**Azərbaycanlı boksçu Emin İsmayılov təkbaşına aksiya keçirib.**

AZXEBER.COM-un məlumatına görə, idmançı Gənclər və İdman Nazirliyinin binası önünə benzin töküb və nazirliyə təkbaşına etiraz edib.

İdmançı deyib: “3 ildir ki, məni süründürürsüz, dinləmirsiz. Əgər cəsarətiniz varsa, mənə yaxınlaşın, kimsə məni yaxınlaşsa, özümü yandıracam”.

Ərazidə olan polislərin müdaxiləsindən sonra idmançı hadisə yerindən uzaqlaşdırılıb.

Qeyd edək ki, boksçu Emin İsmayılov bir neçə müddətdir ki, ciddi zədədən əziyyət çəkir. O, dəfələrlə müalicəsi üçün nazirliyə müraciət etsə də, müsbət cavab ala bilməyib. Bu səbəbdən də boksçu özünü yandıracağını deyib.

YENİ MÜSAVAT
N 168 (6782) 12 avqust 2017

**Azərbaycanda vaxtı keçmiş kreditlərlə bağlı vəziyyət rekord həddə çatıb. Belə ki, vaxtı keçmiş kreditlər bu il iyulun 1-nə 1 810,7 mln. manat təşkil edib. Azərbaycan Mərkəzi Bankının məlumatına görə, bu, iyunun 1-i ilə müqayisədə 4,1% və yaxud 70,9 mln. manat çoxdur.**

# Problemli kreditlər həllini tapmır

## Ekspertlər deyir ki, dövlətin birbaşa iştirakı olmadan problemi həll etmək mümkün olmayacaq

İlin əvvəlinə nisbətən problemli kreditlər 338,1 mln. manat və yaxud 23%, son 1 ildə isə 270,9 mln. manat və yaxud 17,6% artıb.

İyunun sonuna vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində payı 13%, mayın sonuna 11,8%, ötən ilin sonuna 9%, ötən il iyunun sonuna isə 8,4% təşkil edib.

Problemli kreditlər ilk növbədə bankları sıradan çıxarır ki, bunun da ötən dövr ərzində şahidi olmuşuq. Belə ki, devalvasiyadan sonra 13 bank ləğv edilib. Onlardan 11-nin lisenziyası geri alınıb, 2-si isə birləşib. Bununla belə, banklarda yaranan problem həllini tapmayıb və hələ də bir neçə bank birləşdirilə və ya bağlana bilər.

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **keçmiş maliyyə naziri, iqtisadçı-alim Fikrət Yusifov** bildirib ki, problemli kreditlər ətrafında müzakirələr manatın birinci devalvasiyasından sonra başladı:

"İkinci kəskin devalvasiya bu müzakirələrin daha da genişlənməsinə səbəb oldu. Bir neçə aydan sonra artıq üç il olacaq ki, bu müzakirələr davam edir. Bu müddət ərzində mətbuat səhifələrində problemin həlli ilə bağlı kifayət qədər təkliflər səsləndirilib. Əsas təkliflər isə bankların müştərilərə münasibətində yeni yanaşımın ortaya qoyulması ətrafında olub. Lakin təəssüf ki, banklar praktik olaraq bu məsələdə öz müştərilərinə güzəştə getmək istəməyiblər. Əgər ötən dövr ərzində hansısa banklar güzəştə gediblərsə bu da sadəcə simvolik xarakter daşıyıb. Bu gün ölkədə bank islahatlarını sürətləndirmək istiqamətində müəyyən addımlar atılır. Ancaq manatın iki kəskin devalvasiyasından sonra xarici valyutada götürülmüş kreditlərin geri qaytarılması istiqamətində atılan addımları və görülən işləri qənaətbəxş hesab etmək olmaz. Burada koordinal addımlar atılmalıdır. Mərkəzi Bank bu məsələdə öz sözünü deməlidir. Əks halda daha çox məzənnə fərqinin yaratdığı və getdikcə artan problemli kreditlər bank sistemi üçün bir təhlükəyə çevrilə bilər. Hesab edirəm ki, Mərkəzi Bank daxili borclanmaya getməli və bu yolla da xarici kreditorlar qarşısında öhdəliyi olan banklara məzənnə fərqi ilə bağlı dəstək verməlidir. Banklar isə öz növbəsində müştərilərinə real güzəşt etməlidirlər. Problemli kreditlərlə bağlı məsələlərin həlli üçün hər hansı yeni bir qurum yaratmaq olar. Lakin bu qurumun əlində problemi çözmək üçün real bir mexanizm olmasa, onda onu yaratmağa lüzum yoxdur".



**İqtisadçı ekspert Natiq Cəfərli** isə qəzetimizə açıqlamasında söyləyib ki, vəziyyət kifayət qədər gərgindir:

"Devalvasiyalardan sonra əhalinin borc yükü 2 dəfədən çox artdı, çünki ayrılan kreditlərin yarıdan çoxu xarici valyutada idi. Nəticədə banklar və əhali bu vəziyyətdən zərər gördülər. İş məhkəməyə qədər getdi çıxdı ki, bu da yaxşı hal deyil. Çünki onsuz da əhali bu kreditləri qaytara bilmirdi. Minlərlə insanı məhkəməyə verməklə nəyəsə nail olmaq müşkül məsələdir. Həm də bu prosesin statistikasında da problem var. Azərbaycan bankları iki-üç aydan bir az da olsa ödəniş edənləri problemli kredit saymırlar. Lakin beynəlxalq standartlara görə onlar da problemli kreditdir. Beynəlxalq nüfuzlu agentliklərin hesablamalarına görə, Azərbaycanda problemli kreditlərin həcmi təqribən 25 faizdir. Rəsmi rəqəmlər isə bundan iki dəfə azdır. Düşünürəm ki, hətta 25 faiz də çox optimist yanaşmadır. Bəzi banklar var ki, onlar hətta 40-45 faizə qədər problemli kreditlərlə üzləşiblər. Onu da deyim ki, xaricdə beynəlxalq maliyyə qurumlarında 3 faizdən artıq problemli kredit olan banklarda həyəcan təbili çalınır və idarəetmədə dəyişikliklərin olması ilə bağlı qərarlar qəbul edilir. Azərbaycanda isə bu rəqəmləri 10 dəfədən çox keçən banklar var. Buna görə də problemli kreditlərin həcmi artmaqda davam edir. Düşünürəm ki, yaxın aylarda da bu tendensiya davam edəcək. Çünki problemli kreditlərin azalmasının mənbəyi əhalidir. Əhalinin, biznesin isə aldıqları krediti geri qaytarma imkanları yoxdur. Həm faiz dərəcələri çox yüksəkdir, həm də devalvasiyadan sonra manat ekvivalentində götürdükləri pul iki dəfədən çox bahalaşıb. Ona görə də həm banklar, həm əhali, həm də dövlət əlini daşın altında qoymasa, bu problem qar uçqunu kimi arta-arta davam edəcək. Bu iki il ərzində Beynəlxalq Bankla bağlı görülən tədbir xaricində heç bir addım atılmayıb. Bu bankın xarici və daxili öhdəlikləri dövlət tərəfindən ödənilməyə başladı. Bir də əmanətlərlə bağlı problemlər olmasın deyə Mərkəzi Bank Əmanətlərin Sığortalanması Fonduna 500 milyon manat vəsait ayırdı. Dövlətin iştirakı bank sistemində bundan ibarət oldu. Problemli kreditlə bağlı heç bir tədbir görülməyib".

**ABŞ-da böhran illərindən sonra problemli kreditlərlə bağlı xüsusi agentlik yaradılsa da, ekspert bildirib ki, Azərbaycanda bunu etmək mümkün deyil:**

"Amerikada biznes strukturları dövlətin iştirakı olmadan özləri bu işlə məşğul oldular. Banklar öz borcları daha aşağı qiymətə şirkətlərə satırdılar. Sonra isə şirkətlərlə vətəndaşlar arasında danışıqlar başlayırdı və müəyyən razılaşmalar, məhkəmə qərarından sonra ödənişlərin bərpa olunmasına çalışılırdı. Azərbaycanda isə dövlətin iştirakı olmadan problemi həll etmək mümkün deyil. Çünki bankların əlavə vəsait cəlb etmə imkanı yoxdur. Hətta bu yaxınlarda məlum oldu ki, kommersiya banklarını xarici borcları da var və onun da qaytarılmasında problemlər yaşanır. Əhalinin də birdən-birə biznes şəraitini yaxşılaşdırıb, borclarını qaytarmaq kimi imkanı yoxdur. Dövlətin birbaşa iştirakı olmadan problemi həll etmək mümkün olmayacaq".

❑ **Ə.RAİS**

# Qan alveri, humanizm, yoxsa milli ənənələr?



Elnur Rüstəmov



Əhməd Qəşəmoğlu

## Yaxınları qəzada ölənlərin barışmasının pərdəarxası məqamları; **ekspert:** "Bu hal bizim milləti yaxşı tərəfdən xarakterizə edir"

**Baş nazirin müavini, "Qaçqınkom"un sədri Əli Həsənovun nəvəsinin törətdiyi qəzada ölən Vaqif Əsədovun ailəsinə baş çəkməsi ilə bağlı xəbər yayıldıqdan sonra ictimaiyyətdə fərqli məcrada müzakirələr başladı. Belə ki, ailənin mətbuata açıqlamasında işlətdiyi ifadə çoxlarında qıcıq yaratdı. Vaqif Əsədovun ailə üzvləri ilk növbədə ümumiyyətlə, bu məslə ilə bağlı danışmaq istəmədiklərini bildiriblər. Hansı ki, bundan əvvəl onlar qəzəbli danışmışdılar. V.Əsədovun ailə üzvlərinin son davranışlarından belə aydın olur ki, ailə sanki heç Nail Allahverdiyevi günahkar qismində görmür. Sosial şəbəkələrdə əksəriyyət məsələyə bu cür rəy verdi ki, ailə Əli Həsənovdan pul və ya hansısa vəd aldığı üçün susub...**

Lakin bir reallıq da var: Azərbaycanda tez-tez şahidi oluruq ki, avtomobil qəzaları zamanı dünyasını dəyişən tərəfin ailəsi qəzanı törədənləri bağışlayır. Maraqlı məqam ondan ibarətdir ki, bu cür humanistlik məhz avtomobil vurmaları zamanı baş verir. Yəni kimsə əgər kiminsə oğlunu və ya atasını odlu, yaxud da soyuq silahla vurub öldürürsə, ailə onu əksər hallarda bağışlamır. Hətta qan davası yürüdənlər də olur. Avtomobil qəzalarında isə bir qayda olaraq nəslin ağsaqqalları yığışıb, söhbət aparırlar. Daha sonra zərərçəkən ailə, zərər verəni bağışlayır.

**Psixoloq Elnur Rüstəmov** "Yeni Müsavat"a bildirib ki, bu məsələ bir qədər fərdi xarakter daşıyır:

"Məsələ burasındadır ki, gün ərzində kifayət qədər avtoqəzalar olur. Bu qəzalarda qarşı tərəfi bağışlayan da olur, bağışlamayan da. Sadəcə olaraq bizim haqqında fikir yürütdüyümüz ictimailəşmiş avtoqəzalardır. Ümumən götürdükdə isə kifayət qədər bağışlamayan, təzminat istəyən insanlar da az deyil. Elə avtoqəzalar var ki, sırf ehtiyatsızlıq ucbatından baş verir. Bəziləri də var ki, orada səbəb başqadır. Ona görə də məsələ fərdi xarakter daşıyır. Əgər cinayət varsa, onun cəzası da olmalıdır. İstənilən baş verən hadisəyə üç cür qiymət verilir. Hüquqi nöqteyi nəzərindən, dini və adət-ənənə baxımından qiymət verilir. Bütün toplumlarda belədir. Heç kim etdiyi əməlinə görə cəzasız qalmır. İnsan nə əkirsə, sabah da onu biçir".

**Sosioloq Əhməd Qəşəmoğlu** isə hesab edir ki, bu, azərbaycanlıların humanistliyi ilə bağlıdır:

"Bizim insanlar xarakter etibarilə ürəyi yumşaq olurlar. Bu cür tərbiyə sistemi də uşaqlıqdan başlayır. Ona görə də insanların əksəriyyətində qəddarlıq yoxdur. Avtomobil qəzalarından sonra da tez-tez müşahidə olunan haldır ki, ya bağışlanma olur, ya da "qan pulu" verib məsələni bağlayırlar. Məsələyə əsasən fərdi yanaşmaq lazımdır. Baxır ki, hadisəni törədən kimdir və hansı situasiyada bunu edib. Ümumilikdə isə cinayət cinayətdir. Onun cəzası çəkilməlidir. Bu hal bizim milləti yaxşı tərəfdən xarakterizə edir. Azərbaycanlılar dünyanın hər yerində bu cürdürlər. Səmimi, ürəyi açıq, kövrəkdirlər. Bəzi hadisələrdə cəzanı allahın, taleyin ümidinə buraxırlar və pislikdən çəkinirlər. Bu isə müsbət haldır. Doğrudur, məsələdə dinin də rolu var, ancaq əsas səbəb milli xarakterdən gəlir. Müsəlman olar ki, o, qəddarlıq edə bilər. Düşünürlər ki, ölən geri qayıtmayacaqsa niyə cəza istəyək. Yaxud da baxırlar ki, vuran adamın ailəsi, azyaşlı uşağı var. Ona görə də vəziyyəti nəzərə alıb, geri addım atırlar. Qanun da qanundur. Hər şeyi başlı-başına buraxmaq doğru deyil. Qəzanın səhlənkarlıqdan, harınlıqdan və ya təsadüfdən baş verməsi də əsas şərtdir".

❑ **ƏLİ**

YENİ MÜSAVAT
N 168 (6782) 12 avqust 2017



# Burun fərqiylə qələbə

Samir SARI

**Gərək ki, ötən il idi, yeniyetmə oğlumla oturub idman yarışlarına baxırdıq. Özünü güclü idmançı hesab edən varis birdən-birə bəyan etdi ki, 100 metrə qaçışda Hüseyn Boltu ötər. "Bir az düş" dedim. Düşdü. "Bərabər gələrik" dedi. Dedim: "Bir az da güzəşt et Bolta". Dirəşdi. Nəhayət, razılaşdı: "Yaxşı, finiş xəttini birinci o keçər, amma burun fərqiylə".**

Doğrusu, dünənə qədər qəti əmin idim ki, kimsə nə vaxtsa qaçışda Yamaykanın qara oğlanlarını ötə bilməz. Çünki bu ölkədə istənilən uşağı küçədən tut, qaçırt, 100 metri 11-12 saniyədə qət edəcək. Ona görə də neçə illərdir 100 metrdən tutmuş marafon qaçmağa qədər bütün qaçış yarışlarında dünyada liderlik yamaykalılara məxsusdur.

Srağagün isə həmyerlimiz Ramil onların liderliyinə son qoydu. Düzdür, bu, asan başa gəlmədi, burun fərqiylə oldu, amma olsun. Əsas odur ki, finiş xəttini öndə keçən bizim incə burnumuz idi.

Gerçəkdən hamılıqca qürur duyacağımız hadisədir. Bu, camaatımızın atletik potensialını göstərir. Ötən il Rioda ağır atletimiz qızıl medal almışdı, bu il də Londonda yüngül atletimiz çempion oldu.

Təkbətək mübarizədə - güləşdə, cüdoda uğurlarımız var. Yəni əfəl camaat deyilik. Yeri gələndə, loru dildə desək, sıpa irtməyi qoparan gənclərimiz var.

Məsələn, 9 il öncə Elnur rəqibini 10 saniyənin içində danaboyun edib tatamiyə çırpanda və belinə minib "əla" işarəsi verəndə çox sevinmişdik. 5 il öncə Toğrul da Londonda rəqibinin üzərində parlaq qələbə qazananda riqqətə gəlmişdik.

Xüləs, bizimkilərdə parlaq qələbələr qazanmaq potensialı var, amma onu əldə saxlamaq fərasəti, qabiliyyəti yoxdur. Bizim qələbələrimiz birdəfəlikdir. "Birdəfəlik" deyəndə yaxşı ifadə olunmur, rusca "odnorazovıy" deyək, analaşıqlı olsun.

İndi deyirlər, hayıf ki, Ramil o qədər böyük qələbəni, qızıl medalı Türkiyəyə qazandırdı. Eybi yoxdur. Medalın hansı ölkəyə getməsi, xüsusilə də o qardaş ölkədirsə, önəmli deyil. Əsas odur ki, London çempionatını Boltu bizim oğlandır.

Bəziləri də deyir ki, gərək Ramil getməyəydi, qələbəni də bizim bayrağımız altında qazanaydı. Hə, elə daha yaxşı olardı. Amma getməsə, qızıl medal qazana bilməyəcəkdi axı. Adama burda düz-əməlli maaş vermirmişlər, deyirmişlər, hələ özünü təsdiq elə.

Dünən həmkarlarım Azərbaycanın Yüngül Atletika Federasiyasının prezidenti Çingiz Hüseynzadənin nə vaxtsa dediyi sözləri paylaşmışdılar. Hüseynzadə deyibmiş ki, Ramil Türkiyəyə köçdükdən sonra əvvəlki nəticələrinə yaxın nəticə belə göstərmir. "Mən, məsələn, Ramilin hansısa yarışda qalib gəldiyini eşitməmişəm. Böyük pul ardınca qaçmaq hər zaman uğur gətirmir", -deyibmiş baş yüngül atletimiz.

Hiss olunur ki, Ramil heç də "yalnız böyük pul ardınca" qaçmırmış, qızıl medal dalınca qaçırmış və qaçıb ona çatıb. Pul ardınca qaçmağa qalsaydı, Ramil bizim idman təsərrüfatımızın böyüklərinin ya tozuna çata bilməzdi, ya da ən yaxşı halda burun fərqi ilə uduzardı. Daha dəqiqi, burnunun üstündən vurub deyərdilər, arıq oğlansan, get, o yanda qaç.

Hazırda dostlar deyirlər ki, gec deyil, Ramil gəlsin, gedib bizi Tokio olimpiadasında təmsil eləsin.

Yox, gəlməsin. Gəlsə, pis olacaq. Güc nazirliklərinin birinə işə götürəcəklər, çiynində bayraq yox, poqon daşıyacaq, qarın buraxacaq, 200 metri 20 saniyədə qaçmayacaq, 200 metr o tərəfdən ona nəsə lazım olsa, uşaq göndərəcək.

Hətta daha pis variant var. Ramil ölkəyə gələn kimi çoxsaylı dostları (adətən çempionların dostları həndəsi silsilə və ya bakteriyaların bölünməsi nisbəti ilə artır) onu əhatəyə alacaqlar, bir gün qəlyana, başqa gün saunaya, altı-bazar Qubaya, Nabrana kef məclisinə aparacaqlar. O da əvvəlcə müqavimət göstərəcək, "idman formamı qorumalıyam" deyəcək. Amma dostları ona deyəcəklər ki, ə, qaqa, Allaha şükür, evin varmı, var, maşının varmı, var, xərcləməyə pulun varmı, var, ta neyniyirsən, qaça-qaça özünü həlak edirsən, beş gün rahat yaşa də, ömür gedir ey...

**Yəni bu ölkədə əsas düşüncə budursa, orda Ramil olmur, lap Hüseyn Bolt olsun, Messi, Ronaldo olsun, gəlib bizdən biri olacaq. Və bir gün ayılacaq ki, köhnə şöhrət itib, sərvət yox olub, kasıbçılıqla burun-buruna qalıb.**



# Valideynlərin məktəbli bazarlığı dərdi...

## Vətəndaşlar məktəb ləvazimatlarının bahalığı ilə yanaşı keyfiyyətindən də şikayətçidir

**Yeni dərs ilinin başlamasına 1 aydan az bir vaxt qalsa da, bir valideynlər artıq məktəb alış-verişinə başlayıb. Onların bu tələskənliyinin səbəbi isə məktəb başlayana yaxın qiymətlərin daha da bahalaşması ilə bağlıdır. Məhz buna görə də bazarlarda və mağazalarda bir canlanma müşahidə edilir. Kimisi ağ köynək alır, kimisi məktəbli forması kimisi isə dəftər qələm...**

Hazırda bir şagirdin dərsə getməsi üçün nə qədər vəsaitə ehtiyac olduğunu öyrənmək üçün məktəb ləvazimatları satılan bir neçə yerə baş çəkdik. Apardığımız müşahidələrdən məlum oldu ki, mərkəzdə və şəhərdən bir qədər kənarda satılan məktəb ləvazimatları arasında ciddi qiymət fərqi var. Məktəbə getmək üçün uşağa ilk öncə geyim lazım olduğunu nəzərə alaraq ilk onların qiyməti ilə maraqlandıq. Öncə başlayaq məktəbli formasından. Məktəbli formalarının qiyməti 40-50 manat arasında dəyişir. Bakı Tikiş Evi ASC-nin satış şöbəsinin rəisi Etibar Əzimov mətbuata açıqlamasında bu il məktəbli formalarının qiymətində artım olmayacağını bildirmişdi: "Ötən il vahid məktəbli geyimlərinin satışında 7 faiz bahalaşma olmuşdu. Hələlik ötən ilki qiymət qalır. Manatın məzənnəsi stabil olduğundan qiymət dəyişikliyi barədə düşünmürük".

**O qeyd edib ki, məktəbli formaları aşağı siniflər üçün 40, yuxarı siniflər üçün 46 manatdır:** "Bakı, Sumqayıt və Xırdalan ərazisində filialımız var. Məktəbli geyimlərinə kimin ehtiyacı varsa, yaşadığı əraziyə yaxın mağazalardan da ala bilər".

Qeyd edək ki, bəzi yerlərdə məktəbli formaları 2-3 manat baha satılır. Məktəbliyə lazım olan ağ köynəklərin qiyməti 10-30 manat arası, balacalar üçün ağ lentlər 70 qəpik 1 manat arasında satılır. Çantalara gəlincə isə çantanın harada istehsal edilməsindən və keyfiyyətindən asılı olaraq qiymət 10-80 manat arasında dəyişirdi. "Vasmoy bazarı" kimi tanınan 8-ci kilometr bazarında 10, hətta 7 manata da çanta tapmaq mümkündür. Amma təbii ki, bu çantaların ömrünün nə qədər olacağını sirr deyil. "Nərimanov" metro stansiyası yaxınlığında isə çantaların qiyməti 20 manatdan başlayırdı. Ancaq "Metropark" və digər ticarət mərkəzlərində məktəbli çantalarının qiyməti 2-3 qat baha idi.





Məsələn, burada satılan çantaların qiyməti 50-180 manat arasında dəyişir. Şagirdlərin, xüsusən də aşağı siniflərin kitab yüklərini nəzərə alsaq, valideynlər baha da olsa, çalışırlar ki, uşaqlarının sağlamlığı üçün çanta seçiminə diqqət etsinlər. Digər məktəb ləvazimatlarına gəlincə isə ötən illə müqayisədə 5-80 qəpik arasında artım vardı. Qiymətlər isə məhsulun keyfiyyətindən asılı olaraq hazırda bu cürdür:

12 vərəqli dəftər 10-25 qəpik arası, 40 vərəqli dəftər 30-40 qəpik, 60 qəpiklik dəftər 40-50 qəpik, 100 vərəqli dəftər 60-80 qəpik, qələmlər 10 qəpik 1 manat,

penal 2-6 manat arası, rəngli karandaşlar 3-10 manat, rəsm albomu 1-5 manat, sadə karandaş 10-30 qəpiyə satılırdı. Bu il birinci sinfə gedəcək şagirdlər üçün nəzərdə tutulan ləvazimatlara gəlincə onların da qiymətində ötən illə müqayisədə artım müşahidə etdik. Belə ki, balacalar üçün nəzərdə tutulan yemək qabı 7-15 manat, su qabı 3-15 manat, rəsm albomunun qiyməti isə 50 qəpik-5 manat arasında satılırdı. İş dəftərlərinin qiymətinə gəlincə isə fəndən asılı olaraq qiymət dəyişilirdi. Bir valideynə məktəbə yola salacaq övladı üçün 5-6 fəndən iş dəftəri təxminən 40-50 manata başa gəlirdi.

Satıcılar bir çox məhsulların Çindən gətirildiyini deyir. Hətta bir sıra mağazalarda baha qiymətə qoyulan və Türkiyə istehsalı adı ilə satılan məktəb ləvazimatlarının Çindən gətirildiyini və alıcıların aldadıldığını deyirdilər. "Əhmədli" metro stansiyası yaxınlığında məktəb ləvazimatları satan Əkbər Məmmədov deyir ki, onun satdığı bütün məhsullar Çin istehsalıdır: "Mən valideynləri aldatmıram. Deyirəm çanta da, karandaş da Çindən gəlib. Bəyənirsən al. Bəzən çantaların üzərinə Türkiyə, İndoneziya, BƏƏ-nin etiketlərini yapışdırıb satırlar. Halbuki onların hamısı Çindən gətirilir. Çantanın və digər məktəb ləvazimatlarının Çin istehsalı olub olmadığını ayırd etmək asandır. Alıcı onun ştrix koduna baxmaqla müəyyən edə bilər ki, bu hara məhsuludur. Əgər ştrix kodda birinci rəqəm 8-dirsə, deməli, məhsul Çindən gətirilib".

Övladına məktəbli çantası alan Əsmər Yunusova qiymətlərdə bahalaşma olduğunu deyir: "Biz hələ alış verişə tez çıxdıq ki, qiymətlər ucuz olsun. Məktəblər açılana yaxın heç bir qiymətə də tapa bilməyəcəyik. Hər şey bahalaşacaq. Həm də indi adam azdır deyə rahat alış veriş edə bilirik".

Apardığımız müşahidələr bir şagirdin məktəbə gedə bilməsi üçün təxminən 150-200 manat arasında vəsait tələb olunduğunu deməyə əsas verir. Təbii ki, bu qiymət hazırkı zaman üçün keçərlidir.

*Maraqlıdır, hazırda satışda olan məktəb ləvazimatları standartlara cavab verirmi?*

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** satışda olan məktəb ləvazimatları ilə bağlı onlara şikayətlər gəldiyini dedi: "İstehlakçıların geniş aldadılması baş verir. Çox təəssüflər ki, istehlakçı hüquqlarını qoruyan dövlət orqanları həddindən artıq texniki işlərlə məşğul olur. Böyük istehlakçı problemləri aşıb daşır. Əlbəttə məktəbli bazarı çirklənmiş bir vəziyyətdədir. Azad bazar iqtisadiyyatı olduğu üçün kim nə istəyirsə, gətirib istədiyi qiymətə sata bilər. Lakin bu o demək deyil ki, təhlükəli mallar, təhlükəsizliyi təmin olunmalı mallar sertifikatı olmadan da satıla bilər. Nazirlər Kabinetinin 94 saylı qərarına görə sertifikatı olmayan malın satışı qadağandır. Qurumumuza iki telefon zəngi gəlib ki, məktəbli çantası almışıq rəngi çıxır, pis qoxu verir. Dövlət orqanları müəyyən iş aparmalıdır ki, vəziyyət dəyişsin".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 168 (6782) 12 avqust 2017

**İkinci Qarabağ müharibəsinin qaçılmaz olduğunu artıq bir çox ekspertlər dilə gətirirlər. Əgər bir neçə il öncə sülh danışıqlarının alternativinin olmadığı söylənilirdisə, ötən ilin aprel döyüşlərindən sonra fərqli situasiya yaranıb. Xüsusilə də havadarlarına arxalanan Ermənistanın qeyri-konstruktivliyinin qarşılığında Azərbaycanın tutduğu güzəştsiz mövqe savaşın qaçılmaz olduğunu deməyə əsas yaradır.**




# Bakı ilə Naxçıvanı birləşdirən Mehri dəhlizini açmaq təklifi

## Düşmən şokda: ikinci Qarabağ müharibəsi Zəngəzurda davam edə bilər; **politoloq:** "Dəhlizin nəzarətə götürülməsi üzərində ciddi düşünməli, müzakirələr açmalıyıq"

Belə bir situasiyada bəzi erməni ekspertlərin təşvişi də nəzərdən qaçmır. **"Modus Vivendi" analitik mərkəzinin rəhbəri Ara Papyan**ın son açıqlamalarında Ermənistanı gözləyən fəlakətlərə dilə gətirilib. O bildirib ki, Azərbaycan rəhbərliyi erməni dövlətçiyini taqətdən salan taktika ilə hərəkət edir. "Azərbaycanın məqsədi bu regiondan erməni amilini yox etməkdir"-Papyan deyib. (istipress ttp://istipress.com/.com) Onun sözlərinə görə, Azərbaycan rəhbərliyinin nə ritorikası, nə də əməlləri dəyişməyib: "Onların məqsədi, demək olar ki, Qarabağ deyil. Onların məqsədi bu regiondan erməni amilini yox etməkdir. Qarabağ məsələsi, sadəcə, bəhanədir". Jurnalistlərlə həmin görüşdə iştirak edən digər iştirakçı, psixoloq Karine Nalçacyan isə öz növbəsində 2016-cı ilin aprel ayında baş vermiş hadisələrdən danışıb: "Əlbəttə, Azərbaycan tərəfinin məqsədi daha uzun müddətli idi. Amma keçən ilin aprel ayı bizi bir qədər ayıltdı".

Maraqlıdır ki, Ara Papyan bundan əvvəl də bir neçə sensasion açıqlamaları ilə gündəmə gəlib. Ermənistanın Kanadadakı keçmiş səfiri, hazırda siyasi ekspert kimi çalışan Papyan yazda Azərbaycanın yay aylarında müharibəyə başlayacağını demişdi.

O demişdi ki, Rusiya Qarabağın Azərbaycan qaytarılmasında maraqlıdır. "Bununla Kreml Azərbaycanı Avrasiya İqtisadi Birliyinə üzv etməyə şirnikləndirir".

Papyan hesab edir ki, Azərbaycan irimiqyaslı hərbi əməliyyatlara əl atmadan Dağlıq Qarabağda istədiyinə nail olur. Onun sözlərinə görə, Azərbaycan sərhəddə lokal hərəkətlərlə yorucu müharibə aparır. "Bunun nəticəsi odur ki, ötən il Ermənistandan və Qarabağdan miqrasiya güclənib. Bu, Azərbaycanın ən böyük qələbəsidir. Torpaq, ərazi ikincidir, ilk olan xalq və həmin torpağı qoruya biləcək insanlardır". Silahlanmadan danışan Papyan onu da demişdi ki, iş Ermənistanın tez-tez söz açdığı "İskəndər"lərin tətbiqinə gəlib çatmayacaq. "İskəndər" alternativin qalmadığı hallarda əl atılacaq son silahdır". Qeyd edək ki, Papyan əvvəllər də Ermənistanda yaranmış vəziyyət barədə səs-küylü bəyanatlar verib. Bir neçə ay öncə o, Qarabağda baş verənləri "sürünən müharibə" adlandırmış və demişdi ki, hərbi əməliyyatların davam etdirilməsinin Xankəndinin üzərində bayrağın dəyişməsinə gətirib çıxaracağını Ermənistanda gözəl anlayırlar.

Keçmiş səfirin fikrincə, hadisələrin inkişafının daha bir variantı budur ki, "erməni tərəfi yeddi rayonu güzəştə gedəcək və əvəzində Dağlıq Qarabağ üçün aralıq status alacaq. İstək olduğu halda bunu qarşılıqlı güzəşt adlandırmaq olar. Deyəcəklər ki, bəs yeddi rayonu güzəştə getdik, onlar da Dağlıq Qarabağ üçün statusu güzəştə getdilər və gələcək barədə hansısa vədləri verdilər. Fəqət bunlar müqayisə ediləcək güzəştlərdirmi? Əlbəttə ki, yox! Bu qarşılıqlı güzəşt deyil, təslimçilikdir. Azərbaycan Prezidenti İlham Əliyev ilk mərhələdə 5, sonra 2, daha sonra isə 5 rayonu almaq, dördüncü mərhələdə Zəngəzuru, sonda isə İcevanı əldə etmək istəyir. Bu da olacaq. Əliyev həmişə səmimi olub və artıq neçə ildir deyir ki, hər şeyi almaq istəyir. O heç vaxt deməyib ki, mənə bir hissəni verin, bununla kifayətlənim".



"Qarabağ savaşını birinci, ikinci və ya üçüncüyə bölməyin tərəfdarı deyiləm. Savaş başlayıb və hələ bitməyib, indiki atəşkəs müvəqqətidir və heç icra olunmur, olunmamalıdır da". **Politoloq Elxan Şahinoğlu** bu fikirləri "Yeni Müsavat"a açıqlaması zamanı dedi. Ekspertin sözlərinə görə, torpaqlarımız işğal altında olduğu üçün düşmən daim təzyiq altında saxlanılmalıdır: "İşğala son qoymaq üçün düşmənə təzyiqi müxtəlif formalarda artırmaq lazımdır. Bu, aprel döyüşlərinin növbəti dəfə təkrarlanması da ola bilər, düşmənə Ağdam və Füzuli istiqamətində təzyiqin artırılması da ola bilər və ya Mübariz İbrahimov kimilərinin artması hesabına kamikazde döyüşçülərimizin qəhrəmanlığı da ola bilər. Əsas odur ki, işğalçıya rahatlıq verilməməli, zəbt etdiyi torpağa qoyduğu ayağının altı yanmalıdır. Başqa alternativimiz yoxdur". **Politoloq bildirdi ki, Ermənistan sırf danışıqlar yolu ilə torpaqlarımızı boşaltmayacaq, hətta bunu istəsə belə, Rusiyadakı ağaları ona imkan verməyəcək:** "İşğalçı dövlət bizə artıq sərhədboyu problemlər yaradır. Tovuz və Qazaxın Qarabağa aidiyyatı yoxdur. Ancaq oradan da bizi vururlar. Halbuki, düşmən bilir ki, bizim məqsədimiz Dağlıq Qarabağ və ətraf rayonların azad etməkdir, ancaq mənə elə gəlir ki, artıq bu strategiyadan imtina etmək lazımdır".

**E.Şahinoğlu ermənilərin növbəti döyüşlə bağlı təşvişini də əsassız saymır:** "Dövlət başçısı İlham Əliyev haqlı olaraq çıxışlarında mütəmadi olaraq Zəngəzurun və İrəvan xanlığının Azərbaycana mənsubiyyətindən danışır və buna görə də erməni təhlilçilər deyirlər ki, Azərbaycanın Ermənistan torpaqlarında, o cümlədən Zəngəzurda gözü var. Bəli gözümüz var və artıq bunu gizlətməməliyik. Hətta düşmən Naxçıvandan da arxayın olmamalıdır, bilməlidir ki, budəfəki müharibə genişmiqyaslı olacaq, aləm bir-birinə dəyəcək, savaş Qarabağdan başqa bütün sərhədboyunu, Zəngəzuru və Naxçıvanı da əhatə edə bilər. Biz bu dəfə bütün imkanlarımızı səfərbər etməliyik. Çünki biz Qarabağ və ətraf rayonların azad etmə əməliyyatında düşmən onsuz da bizə sərbədboyu və Naxçıvan istiqamətində problemlər yaradacaq. Ona görə düşməni bu imkanı vermədən həmin istiqamətlərdə özümüz işğalçıya problemlər yaratmalı. Ermənilər Laçını ona görə işğal etdilər ki, Dağlıq Qarabağla Ermənistan arasında dəhlizə nəzarət etsinlər. İndi də danışıqlarda bu koridoru nəzarətdə saxlayacaqlarına dair hamıdan təminat istəyirlər. Niyə onlara olar, bizə yox? Biz də Azərbaycanın materik hissəsi ilə Naxçıvan arasındakı dəhlizin nəzarətə götürülməsi üzərində ciddi düşünməli, müzakirələr açmalıyıq".

**Son zamanlar yaşanan gərginlikləri şərh edən E.Şahinoğlu bildirdi ki, yay aylarında cəbhə bölgəsində hər zaman bu və ya digər dərəcədə gərginlik olur:** "Artıq buna öyrəşmişik. Ancaq məsələ burasındadır ki, cəbhə bölgəsindəki budəfəki gərginlik Azərbaycan-Ermənistan sərhədinə inikas olunub. Azərbaycanın əsas dərdi Dağlıq Qarabağ və ətrafındakı rayonları azad etməkdir və buna görə işğalçıya daima təzyiq edilir. Ancaq Azərbaycanın Ermənistan torpağında gözü yoxdur. Buna görə iki dövlət arasında sərhəddə nə baş verirsə, demək bu, birbaşa İrəvanın planına aiddir və işğalçı təxribatla məşğuldur". **Ekspert şübhə etmir ki, Ermənistan Rusiyaya, daha doğrusu Rusiya ilə birgə formalaşdırdığı birgə hərbi qoşun birliklərinə güvənərək Tovuz və Qazax istiqamətdə bizim mövqeləri vurur, insanlarımızı hədəf alır:** "Bunun cavabı mütləq elə həmin istiqamətlərdə verilməlidir. Əks halda, İrəvan elə biləcək ki, biz Rusiya-Ermənistan hərbi qoşun birliklərindən çəkinirik və prosesə Rusiya qarışar deyə, baş verənlərə seyrçi qalacağıq. Rusiya Azərbaycana mümkün olan pisliyi edib, vaxtilə Dağlıq Qarabağ və ətraf rayonların işğalında Ermənistana dəstək verib. İndi də Moskva erməniləri bütün sərhəd boyu təxribatlara həvəsləndirir. Mən "Türkiyə ilə hərbi ittifaqı yeni mərhələyə qaldırmaq, qardaş ölkənin hərbi bazalarını Azərbaycanda yerləşdirmək üçün Ankara ilə danışıqlara başlamaq lazımdır" deyərkən elə bu günü nəzərdə tuturdum. Hərbi ittifaqın qarşısında başqa hərbi ittifaq dayanmalıdır. Qətər kimi dövlət belə, gələcəkdə başına gələ biləcəkləri nəzərə alaraq ərazisində ABŞ-la yanaşı, Türkiyənin hərbi bazalarını yerləşdirdi". **O ki qaldı Tovuzda yaralanan uşağa, E.Şahinoğlunun sözlərinə görə, bunun cavabı Qarabağda deyil, məhz elə həmin istiqamətdə verilməlidir**: "Bir də Azərbaycan XİN-lə Müdafiə Nazirliyi birgə açıqlama yayaraq Ermənistanın Rusiyanı müharibəyə qatmaq prosesinin yaxşı nəticə verməyəcəyi haqqında indidən Moskvanı xəbərdar etməlidir. Mənə elə gəlir ki, Tovuz və Qazax istiqamətində gərginliyin artmasında Rusiyadakı siyasi mərkəzlər dayanır, əks halda erməni həmkarlarına deməliydilər ki, "Azərbaycanla nə işiniz və təxribatınız varsa, cəbhə bölgəsində edin, Azərbaycanla sərhəddən uzaq dayanın". Əgər bunu demirlərsə, demək elə özləri bu təxribatlara şərait yaradır, bu yolla Azərbaycana mesaj yollayırlar, Azərbaycanın reallaşdırdığı regional layihələrin icrasına mane olmaq istəyirlər".

❑ **Cavìd TURAN**




## Gürcüstan XİN Rusiyanı aqressiv addımlara son qoymağa çağırdı

**Gürcüstan Xarici İşlər Nazirliyi Abxaziya ilə sərhəddə tikanlı məftillərin çəkilməsini pisləyən bəyanat yayıb. APA-nın yerli bürosunun Gürcüstan XİN-ə istinadən verdiyi məlumata görə, bəyanatda Rusiyanın bu addımı yerli əhalinin fundamental hüquqlarının kobud şəkildə pozulması kimi qiymətləndirilib.**

"Bu addım əhalinin sərbəst hərəkət etmək, təhsil və sağlamlıq hüquqlarını məhdudlaşdırır. Bu da öz növbəsində Abxaziya regionunda humanitar vəziyyətin ağırlaşdırılmasına gətirib çıxaracaq", - deyə bəyanatda vurğulanıb.

XİN Rusiyanı Gürcüstana qarşı aqressiv addımlara son qoymağa, beynəlxalq hüquq normalarına, Gürcüstanın suverenliyi və ərazi bütövlüyünə hörmət etməyə çağırıb.

YENİ MÜSAVAT
N 168 (6782) 12 avqust 2017

**Genetik Modifikasiya Olunmuş (GMO) məhsulların xərçəng, sonsuzluq, allergiya kimi ağır xəstəliklərə yol açması haqda kifayət qədər məlumatlar var. Lakin yayılan informasiyalar faktlarla bərkidilmədiyindən, onların doğru olmasını birmənalı qəbul etmək də çətindir.**



# Azərbaycandakı ABŞ səfirliyində "atom bombası" müzakirələri

## Eyyub Hüseynovdan hadisə kimi müsahibə: "Onlara bildirdim ki, GMO atom bombasına bərabər silahdır, çünki..."

Ən müxtəlif mənbələrdə GMO məhsullarının ziyanı haqda çeşidli yazılar var, amma konkretlikdən uzaqdır. Məsələn, əqrəb geni vurulmuş kartofun insan sağlamlığına ziyanlı olduğu deyilir. Həmin əqrəbi isə çinlilər yarıbişmiş, bişmiş hətta çiy şəkildə - diri-diri yeyirlər. Bu, bir faktdır. Əqrəbin geni kartofun tərkibində insan bədəninə düşüb ziyan vurursa, bu gün yer üzündə çinli qalmamalı idi. Amma Çin əhalisinin sayına görə dünyada ilk yerdədir.

*Bəs, gen mühəndisliyi sayəsində alınan məhsullar niyə bu qədər səs-küyə səbəb olur? Niyə dünyaca məşhur "Greenpeace" təşkilatı GMO məhsullara qarşı çıxır?*

Məlumat üçün deyək ki, təşkilat illərdir GMO tərkibli məhsulların siyahısını dərc edir. Həmin siyahıda bütün dünyada tanınan şirkətlərin məhsulları liderdir. Yayılan siyahıdan aydın olur ki, pulumuzu verib özümüzü - ən əsası övladlarımızı zəhərləyən məhsullar alırıq.

*"Greenpeace"in elan etdiyi GMO istehsalçılarının qara siyahısı belədir:*

***1. "Snickers"***
***2. "Campbell" supları***
***3. "Uncle Bens Mars" düyüsü***
***4. "Lipton" çayı***
***5. "Mars, M&M"***
***6. "Twix"***
***7. "Milky Way"***
***8. "Cadbury" ("Kedberi") şokolad, kakao***
***9. "Ferrero"***
***10. "Nestle" şokoladı***
***11. Alkaqolsuz içki "Coca-cola" (Koka-kola)***
***12. "Nestle Nesquik" şokoladlı içki***
***13. "Sprite", "Fanta", "Kinli", "Fruktaym"***
***14. Pepsi-Co Pepsi***
***15. "7-up", "Fiesta", "Mountain Dew"***
***16. "Kellogg's" quru səhər yeməkləri***
***17. "Knorr" sousları***
***18. "Parmalat" peçenyeləri***
***19. "Hellman's" sousları, mayonezləri, qatqıları (ədviyyat)***
***20. "Heinz" sousları, mayonezləri, qatqıları (ədviyyat)***
***21. "Nestle" uşaq qidası***
***22. "Hipp"***
***23. Abbot Labs Similac***
***24. "Denon" yoqurtları, kefir, pendir, uşaq qidası***
***25. "McDonald's" (Makdonalds) restoranlar şəbəkəsi***
***26. "Kraft" şokoladları, çipsi, kofe, uşaq qidası***
***27. "Heinz Foods" ketçupları, sousları***
***28 "Delmi" Unilever məhsulları, uşaq qidaları...***

***

**"Azad İstehlakçılar" İctimai Birliyinin (AİB) sədri Eyyub Hüseynov** deyir ki, GMO atom bombasına bərabər silahdır, ölkəmizdə isə bu sahədə durum bərbaddır:

- Azərbaycanda cin şüşədən çoxdan, lap çoxdan çıxıb. Azərbaycan qaçqın problemi yaşayıb. Ölkəyə humanitar yardımlar sırasında humanitar toxumlar daşınıb. Humanitar yüklər isə yoxlanılmır. Azərbaycanda GMO bitkiçiliyi, əkinçiliyi geniş yayılıb. Ölkədə mövcud olan və GMO-nu müəyyən etməli olan laboratoriyaları ötən il test etdim. Braziliyadan üzərində GMO məhsul olduğunu təsdiqləyən nişan olan 5 ayrı növ yağ gətirdim. Həmin yağları 2 hissəyə böldüm. Bir hissəsini Gömrük Komitəsinin laboratoriyasına, bir hissəsini isə "Qosstandart"ın laboratoriyasına təqdim etdim.

Birinci laboratoriya yazdı ki, yağlar ekoloji təmizdir, ikinci laboratoriya yazdı ki, GMO tərkiblidir. Ölkədəki durum budur. Sərhəddən ölkəyə GMO məhsulu ona görə rahatlıqla yol tapa bilir. Azərbaycanda yetişdirilən bitkilərin əhəmiyyətli hissəsi GMO tərkiblidir. Həmin bitkilərin məhsulları da müvafiq olaraq GMO tərkibli hesab olunur. Əhali bilməlidir ki, bazardan, çoxsaylı aqromarketlərdən aldığı toxumdan yetişdirilən bitkidən alınan toxum yetişmirsə, bar vermirsə, verirsə belə yöndəmsiz, əyri-üyrü məhsul ərsəyə gəlirsə, deməli, toxum GMO tərkiblidir. Qarpız, soğan, çuğundur, pomidor və sair məhsulların böyük əksəriyyəti ekoloji təmiz məhsul deyil, yəni GMO tərkiblidir. Yer üzərində soyanın 98 faizi GMO tərkiblidir.

***- Soyadan alınan məhsullar hansılardır?***

- Soyadan süd, yağ, pendir, un, quş yemi, mayonez alınır, körpə qidalarının tərkibinə vurulan maddələrin əksəriyyəti də soya tərkiblidir. Azərbaycanda mükəmməl laboratoriya yoxdur ki, bu sahədə mükəmməl ekspertiza aparılsın. Ölkə prezidenti GMO-ya qarşı çox əhəmiyyətli qərarları var. Çox təəssüflər olsun ki, həmin qərarlar işlək deyil, GMO məhsullarının təbliğatını aparanlar da ölkədə az deyil.

***- Kimlərdir həmin şəxslər?***

- Özlərini mütəxəssis adlandıran şəxslərdir. GMO dünyada çox sürətlə yayılır və dünya dövlətlərinin hökümətlərinə təsir göstərir.

***- Demək istəyirsiz ki, həmin şəxslər hökümətdədirlər?***

- Dəfələrlə məni səfirliklərə çağırıblar. Ümumdünya Ticarət Təşkilatının emissarları dəfələrlə AİB ofisinə gəliblər. Onlar GMO-nin əleyhinə fikirlərdən daşındırmağa yönəlik çağırışlar edirlər.

***- Hansı səfirliklərə çağırılmısınız?***

- ABŞ səfirliyində GMO ilə bağlı müzakirələrimiz olub. Məni inandırmağa çalışırlar ki, GMO deyildiyi qədər də ziyanlı deyil, GMO bəşəriyyəti aclıqdan xilas edir. GMO ilə bağlı 7 ölkədə müxtəlif müzakirələrdə iştirak etmişəm. Londonda GMO hazırlayan alimlə də söhbətim olub. O, GMO hazırlanmasının sirlərini açıqlayıb. Bir daha əmin olmuşam ki, çox təhlükəli bir tədqiqatdır. Bu tədqiqatın obyekti dünya bioaləmidir. GMO normal bir şey olsaydı, Birləşmiş Millətlər Təşkilatının Ətraf mühitin Biomüxtəlifliyinin qorunmasına dair sənədi olmazdı. Həmin sənədi 153 ölkə ratifikasiya edib. Həmin sənəddə GMO-nun ətraf mühitə mənfi təsiri və qarşısının alınması üçün görülməli olan tədbirlər əksini tapıb. GMO-nun ətraf mühitin, müvafiq olaraq insanların yaşayış mühitinin pisləşməsində neqativ planda rolu danılmazdır.

***- GMO-nun neqativ təsiri özünü necə göstərir?***

- Sabirabadda təcrübə apararam. GMO tərkibli qarpızla aborogen qarpızı hər il əkdirirəm. Bir-birinə yaxın və uzaq məsafədə qarpızlar əkilir. GMO qarpız növünün aborogen - qədim qarpız növünü necə məhv etməsini gözümlə müşahidə etmişəm. Azərbaycana GMO toxumlar gətirilənə qədər 10-a yaxın qarpız növü vardı. Bu gün isə onlar yox olub, yerini yalnız kiçik tumlu, iri həcmli, gec xarab olan, qışda və yayda satılan qarpız növü tutub. Ehtimalım var ki, həmin qarpız da GMO-dur.

***- GMO-nun insan orqanizminə təsiri haqda məlumatlar ziddiyyətlidir. "Yaxşı" GMO, "pis" GMO varmı?***

- GMO-nun təbabətdə tətbiqi yaxşı nəticələr verir. Misal üçün, deyək ki, insulin - şəkər xəstələrinin əvəzolunmaz dərmanı GMO-dan alınır. İnsulin olmasaydı, şəkər xəstəliyinə tutulmuş insanların böyük əksəriyyəti həyatla vidalaşardılar. Bitkinin DNK-sı genetik modifikasiya yolu ilə dəyişdirir. Kartofa əqrəb, çuğundura balıq geni köçürülür. Bu köçürülmə bitkinin müxtəlif təsirlərə qarşı - soyuğa, istiyə, quraqlığa qarşı davamlılığını, məhsuldarlığını artırır. Belə məhsullar daha gözəgəlimli, xoş iyli, dadlı olur. Allah insanı yaradanda bədənimizdə təbiətdə olan və qida şəklində qəbul etdiyimiz məhsulları həzm etməmiz üçün hormonları da bizə bəxş edib. GMO tərkibli məhsulların insan bədənində həzmi üçün hormonlar yoxdur. Mahiyyətində heyvan geni olan bitkinin məhsulunu həzm etmək üçün insan orqanizmi hormona malik deyil. Belə məhsulların tərkibi sərbəst radikallar şəklində orqanizmimizə yapışır və xərçəng xəstəliyi ämələ gətirir. Hər kəs ətrafında xərçəngə mübtəla olmuş insanların sayının artmasının fərqindədir. İnsanlar bunu görür, amma GMO məhsul almaqdan da çəkinmirlər. Çünki belə məhsulların reklamı dayanmır, belə məhsulların yayılmasının qarşısının alınması üçün tədbir görən demək olar ki, yox səviyyəsindədir.

***- Deyirsiniz ki, ABŞ səfirliyində sizinlə söhbət aparıb GMO məhsullara münasibətinizi dəyişmək istəyiblər. Söhbətin detallarını açıqlaya bilərsiniz?***

- Mənə izah etməyə çalışırdılar ki, GMO məhsulları vasitəsi ilə bəşəriyyəti aclıq bəlasından qurtarmağa çalışırlar. GMO tərkibli bitkilərin məhsulları daha dadlı, daha məhsuldar olmasından danışırdılar. Mən də bildirdim ki, GMO tərkibli məhsulların qeyd etdikləri xüsusiyyətlərini danmıram, amma belə bitkilər yer üzündə olan qədim bitki növlərinin sıradan çıxmasına, məhv olmasına gətirib çıxarır. Eyni ləkdə əkilən GMO və aborogen bitki üzərində aparılan təcrübə göstərir ki, sonuncu ən yaxşı halda eybəcər məhsul ərsəyə gətirir, çox vaxt isə məhv olur. Ətraf mühitin biomüxtəlifliyi də məhv olur. Misal üçün, Kolorado böcəkləri bu gün Azərbaycanda yox olub. Ölkəyə GMO tərkibli kartof toxumları gətirilənə qədər isə Kolorado böcəkləri vardı və onlar kartof bitkisinin yarpaqları ilə dolanırdılar. Həmin böcəklərlə qidalanan başqa canlılar da qırılıb-tükəndilər. Biomüxtəliflik zənciri qırıldı. Məlumat üçün deyim ki, ABŞ-da GMO tərkibli məhsulların qiyməti ilə ekoloji təmiz məhsulların qiyməti arasında 20 faizlik fərq var. Hətta ictimai iaşə obyektləri də bu baxımdan bölünüblər. Ekoloji təmiz məhsullardan hazırlanan qidalar satan kafe-restoranlarla yanaşı GMO məhsullardan istifadə edən kafe-restoranlar var.

***- Azərbaycan qanunları GMO məhsullarının fərqləndirilməsini tələb edirmi?***

- 6 il əvvəl ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə bağlı çox yaxşı bir qanun qəbul olunub. Qanunda yazılır ki, tərkibində GMO olan mal ekoloji təmiz mal hesab olunmur. Çox əhəmiyyətli bir qanundur. Göstərilir ki, Azərbaycanının əmtəə bazarında satılan və tərkibində GMO olan mallar markalanmalıdır. Qanunlar çox yaxşıdır, amma icrası havada qalıb.

***- Azərbaycanda GMO tərkibli məhsullar istehsal edən şirkətlər varmı?***

- Əlbəttə. "Qarabağ" MMC var, qarğıdalı əkini ilə məşğuldur. Kürdəmirdə, İmişlidə əkin sahələri var. Bir neçə il öncə açıqlama verdilər ki, məhsuldarlığın bir neçə dəfə artırılması ilə fəxr edirlər. Həmin MMC GMO qarğıdalı əkir. Mən buna əminəm. Tarix boyu Azərbaycanda o cür yüksək məhsuldarlıq olmayıb. Həmin qarğadalı əsasən quş yeminə qarışdırılır. İstisna etmirəm ki, bu gün bazarlarda piştaxtalara çıxan meyvə-tərəvəzin, məhsulların böyük hissəsi GMO tərkiblidir.



**"Prezidentin GMO-ya qarşı çox əhəmiyyətli qərarları var... 6 il əvvəl çox yaxşı bir qanun qəbul olunub. Orada yazılır ki, tərkibində GMO olan mal ekoloji təmiz hesab olunmur. Qanunlarımız çox yaxşıdır, amma icrası havada qalıb"**

***- Necə düşünürsünüz, həmin məhsuldarlığa gübrələr vasitəsi ilə nail olmaq mümkün olmaz?***

- Əlbəttə ki, mümkün deyil. GMO-nu yaradanlar da məhz bunu deyirlər ki, gübrə ilə məhsuldarlığı GMO tərkib olmadan dəfələrlə artırmaq mümkün deyil.

***- Azərbaycanda sırf qida istehsalı ilə məşğul şirkətlərdən hansılar GMO məhsullarına daha çox üstünlük verir?***

- Azərbaycanda daha çox GMO tərkibli xammaldan istifadə olunur. Ümumiyyətlə isə hansı məhsulun tərkibində soya varsa, o, GMO məhsul hesab olunur. Üzərində işarə olmalıdır ki, ekoloji təmiz məhsul deyil. Açıq şəkildə malın üzərində yazılmalıdır ki, tərkibində GMO var. Qanun bunu tələb edir.

***- ABŞ-da GMO ilə bağlı vəziyyət necədir?***

- Yaxşı deyil. ABŞ, Kanada, Argentina GMO istehsalçılarıdır. Onların sayəsində GMO məhsulları dünyanı fəth etməkdədir. Lakin bir neçə Afrika ölkəsi də var ki, aclıq çəkir, amma GMO-nu qadağan edib, buna qarşı böyük mübarizə aparır. ABŞ-da ixtisasartırma kursunda olduğum 1 ay ərzində Ümumdünya Ticarət Təşkilatının baş ofisinə də getmişdik. Orada GMO məhsullarını müsbət xarakterizə edib bəzi dünyada tanınan QHT-lərin ABŞ məhsullarını bu yöndən antireklam etdiyini dedilər. Rəhbəri olduğum AİB-in GMO-ya qarşı olduğunu söylədim. Bildirdim ki, GMO atom bombasına bərabər silahdır. Atom bombası da, GMO da dünyada biomüxtəlifliyi məhv edir.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 168 (6782) 12 avqust 2017

# Müəyyən qədər türk qanı



Zamin HACI
zaminhaci@gmail.com

**Yüngül atletikaya idmanın kraliçası deyirlər. Çünki ən qədim idman növləri burada cəmləşibdir: qaçmaq, tullanmaq, çəkic və disk atmaq... Ancaq bizdə "kraliçaya" hörmət qoyulmayıbdır, tarixən adam döyməyə, mitinq dağıtmağa, bar və restoran qorumağa istiqamətli idman növlərinə üstünlük vermişik. Güləş, boks, karate, nə bilim, taekvondo və sairə. Doğrudur, heç bunlarda da fantastik uğurlarımız yoxdur, əksinə, arada qışqırışma qopur, güləşçilər piket qayırıb "Qalenvaqen almağa pulumuz yoxdur, istefa, ar olsun, haray, haray, mən türkəm!", deyirlər. Bu "türkəm" sözünü havadan yazmadım, mənası vardır, bizimlə qalın.**

Əlbəttə, yüngül atletika harda, necə inkişaf eləsin ki, buna bizdə bir dənə də normal baza, həmçinin bazis və üstqurum yoxdur. Eşşək boyda paytaxt şəhərində əgər istəyəsən qaçasan, kanalizasiya və mazut iyli bulvardan başqa yer qalmayıbdır. Küçələr, səkilər qaçmaq üçün tam təhlükə mənbəyidir. Başını aşağı salıb qaçarsan, birdən kəllən hansısa dükanın axmaq reklamına çırpılar. Yox, başını dik tutub qaçsan yenə səkini zəbt edən hansısa axmaqa ürcah olarsan. Ən yaxşı halda. Ən pis halda açıq lyuka-zada girib qılçını qırarsan. Parkları isə qranit və mərmərlə üzləyiblər, bunun üstündə qaçmaq da adamın ayaq sümüklərinə çox ziyandır. Yağış və qarda isə sürüşmə təhlükəsi ilə ikiqat ziyandır. Hələ görməmişəm hansısa yenidən qurulan parkda qaçış zolağı, tullanma üçün qumluq olsun. Mən bir ara dəmiryolu vağzalının perronuna sığınmışdım, orda qaçırdım, ancaq uca millətimiz oranı da açıq hava tualeti kimi istifadə elədiyindən sidik iyindən baş çatlayır. Əlac qalıb uçasan, çünki qaçmağa yer yoxdur.

Uzun sözün qısası, bu şəraitdə bir qaçış ustamız yetişmişdi, onu da yola vermədilər, qaçıb getdi Türkiyəyə, dünən isə dünya çempionu oldu. İndi saytlar Milli Olimpiya Komitəmizin vitse prezidenti Çingiz Hüseynzadənin 6 il qabaqkı intervüsünü sanki bizə yanıq vermək üçün tapıb təzədən çap edirlər, orda Çingiz müəllim deyir ki, Ramildə (idmançının adı belədir) türk qanı yoxdur. Müxbir direşəndə isə "Var, amma müəyyən qədərdir", deyibmiş. Gorun çatlasın, Hitler, əgər varsa... Sən demə bizdə idman üçün təmiz türk qanı əsas ölçülərdən imiş. Bəs indi bu Ramil Quliyev niyə dünya çempionu olanda təmsil elədiyi Türkiyə ilə yanaşı Azərbaycanın da bayrağını qaldırıb stadionda fırlanıb? Çingiz Hüseynzadə: "Yəqin son 6 ildə Türkiyədə çoxlu təmiz türk qanı vurdurubdur". Ehtimal edirəm belə deyər. Söz qəhətdirmi?

Ümumiyyətlə, bizdə milli təfəkkür, genetik faktorlara diqqət çox dərindir. Misal üçün, qəti mümkün deyil hansısa erməni ilə qohumluğu olan şəxsi nazir, müdir, hətta baş nazirin müavini vəzifəsinə qoyasan. Səhiyyə Nazirliyində məmurların qan analizi ilə məşğul olan xüsusi idarə də vardır.

Bayraq dirəyimizin dünyada ən uzun bayraq dirəkləri arasında gümüş medal alaraq ikinci yeri tutmasını da bilirsiniz. (Allah taciklərin ümummilli lideri İmomali Rahmonun bayraq dirəyini gözünə soxsun. O bizə rekordumuza göz dolusu sevinməyə də imkan vermədi). Hərçənd, indi ən uzun bayraq dirəyimiz tamamilə yerlə-yeksan olubdur. Düzdür, idarədən deyirlər dirək texniki baxış üçün sökülübdür, ancaq buna kimdir inanan? Bizdə heç maşınları texniki baxışdan keçirmirlər, gəl gör dirək olsun. Hamısı formal şeylərdir.

Mən başqa "təsadüfə" diqqət elədim: Bakıdakı dirək sökülən ərəfədə Qax, Balakən-filan tərəflərdə yeni bayraq dirəklərimizin açılış mərasimləri oldu. Sanki paytaxtdakı uzundraz dirəyi söküb onun materialından rayonlara cupbulu bayraq dirəkləri və parçasından da balaca bayraqlar düzəldirlər. Bu məqam bizim bir atalar sözündə təxminən təsvir edilibdir: "Təzə Ay çıxanda köhnə Ayı doğrayıb ulduz qayırarlar".

Bayraq dirəyi idarəsinin bir müdirini də tutub zindana salmışdılar, heç bilmədim axırı necə oldu. Ondan da bir neçə dustaq düzəldib rayon türmələrinə yerləşdirmək imkanları dəyərləndirilməlidir. Çingiz müəllimdən, təbii, dərkənar almaqla. Bizə təmiz türk qanı olmayan dustaqlar da lazım deyildir.

# "Din və qan qardaşımız"dan etibarsız gediş

**İranda ikinci dəfə ölkə prezidenti seçilən Həsən Ruhani formalaşdırdığı yeni hökumətdə bir etnik azərbaycanlıya belə, nazir portfeli verməyib. Məlumat onun andiçmə mərasimindən sonra üzə çıxıb. Bu, İran əhalisinin az qala, yarısını təşkil edən Azərbaycan türklərinə qarşı, yumşaq desək, etimadsızlığın daha bir təzahürü sayıla bilər.**



# Tehrandan 2 antitürk qərarı - ABŞ sanksiyaları Azərbaycanı da "vurdu"...

## Konqresin İran və Rusiya əleyhinə sərt sanksiyaları cənub qonşumuzu da hərəkətə gətirdi və... yada dərhal Güney amili düşdü; Ruhaninin yeni hökumətdə azərbaycanlılara portfel verməməsi və parlamentdə türkdilli fraksiyanın ləğvinin səbəbi...

Maraqlıdır ki, bundan bir neçə gün sonra - dünən məlum olub ki, İran parlamentində təsis edilmiş Türk Bölgələr Fraksiyası "türk sözünün yaratdığı həssaslıqlar" səbəbi ilə buraxılıb. Yəni ləğv olunub. Axar. az xəbər verir ki, bu barədə məlumatı Təbriz, Azərşəhr və Üskünün millət vəkili Şəhabəddin Bimiqdar deyib.

Onun sözlərinə görə, Türk Bölgələri Fraksiyasının canlandırılması istiqamətində ölkənin şimal-qərb əyalətlərinin millət vəkillərindən ibarət yeni fraksiya yaradılacaq. "Bilmirəm, "türkdillilər" sözü parlamentdə necə həssaslıq yaradırsa, türkdilli fraksiyanın təşkilinə qarşı çıxırlar", - deyə o əlavə edib.

İran parlamentində ilk dəfə Türk Bölgələri Fraksiyası 2016-cı ilin oktyabrında təsis edilib. 100 deputatdan çox üzvü olan fraksiyanın türk bölgələrinin iqtisadi, məişət və təhsil problemlərini ortadan qaldırmaq hədəfi ilə yaradıldığı bildirilirdi.

İndi isə belə bəlli olur ki, sırf iqtisadi, məişət və təhsil problemləri ilə məşğul olan bir fraksiya da Tehranda qıcıq yaratmağa başlayıb. Gerçəkdənmi "türk", "türkdilli" sözlərinə görə? Belədirsə, nədən bir il öncə fraksiya qıcıq yaratmırdı?

Burdaca qeyd edək ki, son vaxtlar İranda türk toplumuna qarşı həqarətedici yazılar və hücumlar da artıb. Yenə sual: görəsən niyə? Baş verənlər təsadüfmü, yoxsa?

***

Yəqin ki, yox. Suallara cavab axtarmaq üçün ən əvvəl İran ətrafında baş verən və cərəyan edən proseslərə diqqət eləmək lazım gəlir. Məsələ də ondadır ki, İranda Güney türkləri ilə bağlı verilən hər iki neqativ qərar ABŞ-ın İran, Rusiya və Şimali Koreya əleyhinə təzəcə qəbul elədiyi sanksiyalar qanunundan az sonraya təsadüf edir.

Məlumdur ki, Moskva kimi Tehran da uzun on illər qüvvədə olacaq bu qanuna qarşı bərk qəzəblidir. Həm də o səbəbə ki, həmin sanksiyalar paketinin daha bir hədəfi Rusiya və İranı daxildən zəiflətmək və daha sözəbaxan ölkəyə çevirməkdir. Rəsmi Tehran isə həmişə daxildəki türk amilindın ehtiyatlanıb.

Elə bir çox əcnəbi təhlilçilər də son zamanlar ABŞ-ın yeni administrasiyası (respublikaçılar) dönəmində İran daxili amillərin, o sırada Güney Azərbaycan faktorunun gündəmə daşına biləcəyi haqda proqnozlar səsləndirməyə başlayıblar.

Bu üzdən nə qədər "islahatçı" imici olsa da, Ruhani hökuməti də belə görünür, türk faktorundan "sığortalanmağa" və "ön tədbirlər" görməyə başlayıb. Belədirsə, o zaman yaxın zamanlarda İranda milli-mədəni fəallara qarşı repressiv addımların artacağını da proqnoz eləmək olar. Ruhaninin son prezident seçkiləri zamanı konstitusiyanın 15-ci maddəsinin (türk və digər dillərin daha fəal istifadəsini nəzərdə tutur) tətbiqi ilə bağlı güneylilərə verdiyi vəd də artıq unudulmuş sayıla bilər.

***

ABŞ-ın yeni sanksiyalarından söz düşmüşkən, bu sanksiyalar bütövlükdə Tehran-Bakı əlaqələri üçün də yeni sınaqlar, hətta diskomfort yarada bilər. Ona görə ki, Azərbaycan Güneydəki bu və digər repressiv hərəkətlərə rəğmən, həm İranla, həm də ABŞ-la tərəfdaş münasibətlər saxlayan ölkədir.

Bu gün İran-Azərbaycan iqtisadi-ticari əlaqələri yüksəliş dövrünmü yaşayır. Eyni zamanda kommunikasiya, humanitar, səhiyyə sahələri üzrə iki ölkə arasında bir sıra ortaq layihələr (Şimal-Cənub nəqliyyat dəhlizi, Naxçıvanı Bakı ilə birləşdirəcək dəmiryolu, Azərbaycanda dərman zavodlarının, Araz çayı üzərində SES tikintisi və s.) həyata keçməkdədir. Bu ortaq iş birliyindən sözsüz ki, İran da böyük mənfəətlər götürəcək və götürür.

Bu mənada Azərbaycan İran üçün də vazkeçilmız bir tərəfdaşa çevrilib yazsaq, yanılmarıq. Ancaq o da aydındır ki, Azərbaycan öz balanslı xarici siyasət kursuna sadiq qalaraq ABŞ-la tərəfdaşlıq əlaqələrini də heç bir halda zəiflətməyəcək - Bakı-Tehran əlaqələrinin hansı səviyyəsində olmasından asılı olmayaraq. Ona görə ki, Azərbaycanın müstəqil dövlət kimi varlıq qarantlarından biri məhz ABŞ-la, Qərblə əlaqələrə bağlıdır. Əks halda Rusiya və İran müstəqilliyimizə çoxdan son qoymuşdu.

Unutmayaq ki, SSRİ dağılandan sonra İran və Rusiya Azərbaycanın müstəqilliyini heç də Türkiyə, Pakistan kimi birinci sırada tanıyan dövlətlər olmayıb. Moskva və Tehranın Azərbaycan dövlətçiliyinə münasibətini onların Dağlıq Qarabağ məsələsində tutduğu mövqe ilə bir daha təsdiqlənir: hər iki ölkə işğalçının yanındadır. İran isə ermənilərə daim gizli rəğbət bəsləyib və bu gün də işğalçı üçün nəfəslik rolu oynamaqdadır, Qarabağ məsələsində Tehran rəsmiləri hətta ara-sıra sürüşkən, ikibaşlı bəyanatlar verirlər. Ötən ilin sonunda Ruhani İrəvana səfər də edib.

***

**Sadalananlar rəğmən, Bakı komplementar xarici siyasət kursunu yəqin ki, davam etdirəcək. Ən azı, iona görə ki, İran və Rusiya ilə normal qonşuluq əlaqələri saxlamağı milli maraqlarımız diktə edir.**

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 168 (6782) 12 avqust 2017

**ABŞ Konqresinin Rusiya, İran və Şimali Koreyaya qarşı sanksiyalar qərarı və Pxenyanla yeni müharibə təhlükəsi prezident Trampın işinə yarayıb. Hər halda araşdırmalar davam etsə də, indi gündəmdə Şimali Koreya ilə gərginlik olduğu üçün Trampın taleyi mövzusu arxa plana keçib.**

# "Tramp artıq respublikaçılar üçün ağır yükə çevrilir"

## Şahin Cəfərli: "Bu isə o deməkdir ki, impiçment üçün siyasi zəmin tədricən yaranmaqdadır"

İndi ABŞ və Şimali Koreya rəhbərliyi bir-birinə qarşı zərbə endirməklə bağlı təhdid edir. ABŞ prezidentinin Pxenyanı "nevə silahlı" təhdidi isə dünya mediasında geniş əks-səda doğurub. ABŞ müdafiə naziri isə deyib ki, onun vəzifəsi müharibə planını hazırlamaqdır, ancaq bununla bağlı "düşmənə məlumat vermək fikri yoxdur". Artıq Yaponiya, Cənubi Koreya, Avstraliya hökumətləri Şimali Koreya qarşısında ABŞ-a dəstəklərini ifadə ediblər. Yəni əgər savaş çıxarsa adı çəkilən (eləcə də başqaları - K.R) ABŞ-ın yanında yer alacaq. Artıq dünən mediada Yaponiya paytaxtında quraşdırılmış "Patriot" Hava Hücumundan Müdafiə sistemlərinin şəkilləri yayılıb. Tokio bəyan edib ki, Pxenyan Quam adalarını atəşə tutarsa, havadaca o raketləri vurub salmağa qadirdir.

Ancaq hələlik qarşılıqlı hədələr davam etsə də, hərbi əməliyyatların başlanacağı ilə bağlı fikirlər yoxdur. BBC Şimali Koreyaya müdaxilə ilə bağlı bir neçə variant olduğunu, ancaq bunların hər birinin ciddi risk daşıdığı üçün dəqiqələşmədiyini yazır.

Bütün bu təhdid atmosferində isə Trampın impiçment söhbətləri arxa plana keçir. Maraqlıdır ki, bu ilin aprelində. Daha dəqiqi aprelin 7-də ABŞ ordusu Suriya hərbi bazasını vuranda da analoji vəziyyət yarandı. Bütün dünya, o cümlədən Konqresdəki düşmənləri bir müddət Trampın Rusiya ilə əlaqələrini, seçilməsindəki "rus izi" iddialarını "unutdular".

Ancaq **siyasi şərhçi Şahin Cəfərli** bunun əksini düşünür. "Yeni Müsavat"a açıqlamasında Ş.Cəfərli bildirdi ki, hələlik xarici siyasət sahəsindəki gərginliyin ABŞ daxilindəki prosesləri arxa plana atdığını söyləmək olmaz. Çünki hazırda xarici siyasətlə bağlı gərginlik yüksək həddə deyil: "Bu, o vaxt baş verər ki, gərginlik müharibə səviyyəsinə qədər artsın. Bu halda Konqres prezidentə müharibəyə başlamaq icazəsi verməlidir. Şübhəsiz ki, hadisələr bu yöndə inkişaf edərsə, ABŞ-da hər kəsin diqqəti müharibəyə yönələcək, siyasi mübarizə müvəqqəti də olsa, səngiyəcək. Hələ ki ölkə bu mərhələyə gəlib çatmayıb".

**Ş.Cəfərli deyir ki, əvvəlki həftələrlə müqayisədə siyasi fəallığın bir qədər aşağı düşməsinin əsas səbəbi isə Konqresin tətilə çıxması ilə əlaqədardır:** "Qanunvericilərin tətili sentyabra qədər davam edəcək. Sentyabrdan sonra ABŞ daxili siyasətində növbəti gərgin mərhələ başlayacaq və bu gərginliyi təkcə Tramp-Rusiya əlaqələrinə dair siyasi və hüquqi müstəvilərdə aparılan təhqiqatlar yox, 1 il sonra Konqresə keçiriləcək ara seçkilər də şərtləndirəcək. Gələn ilin noyabrında Konqresin hər iki palatasında yerlərin üçdə birinə seçki keçiriləcək və faktiki olaraq, bu ilin payızından seçki kampaniyasına start veriləcək. Qanunvericilərin işindəki qısamüddətli fasiləyə baxmayaraq, Rusiyanın ABŞ-dakı 2016-cı il seçkilərinə müdaxiləsini və Trampın komandasının Rusiya ilə gizli əlaqələrini araşdıran xüsusi prokuror Robert Müller təhqiqatını davam etdirir. Təhqiqat artıq yeni mərhələyə qədəm qoyub. Ötən müddətdə R.Müllerin ABŞ qanunvericiliyində prokurorlara verilən səlahiyyətlərdən istifadə edərək Vaşinqtonda Böyük Jüri formalaşdırdığı məlum olub. Böyük Jürinin istənilən şəxsi ifadə verməyə çağırmaq, eləcə də dövlət orqanlarından lazımi sənədləri istəmək hüququ var. Böyük Jüri məhkəmə deyil, sadəcə olaraq, o, apardığı araşdırmanın sonunda toplanan materiallar əsasında cinayət işinin qaldırılıb-qaldırılmaması barədə prokurora tövsiyə verə bilər".

**Digər mühüm hadisə isə FTB-nin Trampın seçki qərargahının rəhbəri olmuş Pol Manafortun evinə basqın edərək bir sıra sənədləri müsadirə etməsidir. Ş.Cəfərlinin fikrincə, bu istintaq ciddi nəticələrə səbəb ola bilər:** "Manafort siyasi texnoloq kimi vaxtilə Ukraynada Viktor Yanukoviç və onun Regionlar Partiyası ilə yaxın əməkdaşlıq edib və bu əməkdaşlıqdan böyük pullar (17 milyon dollar) qazanıb. Onun Rusiya ilə də sıx bağlantıları olduğu güman edilir, bu səbəblə Manafortun personası xüsusi prokuror üçün cəlbedicidir. Manafortun artıq istintaqla əməkdaşlığa getdiyi barədə məlumatlar da var. ABŞ qanunvericiliyində nəzərdə tutulur ki, istintaq üçün qiymətli şahid ifadələri və materiallar təqdim etməyin əvəzində həmin şəxsə prokuror tərəfindən immunitet verilə bilər. Müllerin təhqiqatında önəmli məqam budur ki, qanunvericilik onun fəaliyyətini hər hansı çərçivə ilə məhdudlaşdırmır. Müller Rusiyanın seçkiyə müdaxiləsini, prezidentin yaxın çevrəsinin Rusiya ilə əlaqələrini araşdırmaqla bərabər, həm də Trampın və onun çevrəsinin maliyyə sənədlərini, eləcə də sabiq FBİ rəhbəri Ceyms Kominin işdən uzaqlaşdırılmasının ədalət mühakiməsinə prezident tərəfindən müdaxilə olub-olmadığı məsələsini də araşdırır. Yəni, təhqiqat getdikcə böyüyür və genişlənir. Müllerin yaratdığı istintaq qrupunda təxminən 30 təcrübəli müstəntiq təmsil olunur və onların arasında həm böyük terror hadisələri (məsələn, 11 sentyabr olayı), həm də iri maliyyə fırıldaqları ilə bağlı cinayət işlərinin istintaqını aparmış peşəkar kadrlar var. Bütün bunlar ondan xəbər verir ki, Müller hansısa izə düşüb və axıra qədər getmək fikrindədir".



**Ş.Cəfərlinin fikrincə, əgər bu cinayət işinin yekununda istər Rusiya ilə gizli əlaqələr, istərsə də maliyyə pozuntuları ilə bağlı sübutlar ortaya çıxarılarsa, yaxud prezidentin ədalət mühakiməsini əngəllədiyi sübut olunarsa, impiçment məsələsi gündəmə gələ bilər**: "Son proseslər göstərir ki, artıq respublikaçıların Trampa olan etimadı sarsılmaqdadır. Əslində respublikaçı elitanın Trampa güvənmədiyi sirr deyildi, ötən müddətdə isə bu güvən daha da azalıb. Təkcə sonuncu 2 faktı xatırlatmaq yetərlidir. Məlumdur ki, Rusiya, İran və Şimali Koreyaya qarşı sanksiyaların tətbiqi barədə yeni qanunda prezidentin səlahiyyətləri məhdudlaşdırılıb. Yəni, Tramp artıq Konqresin icazəsi olmadan Rusiyaya qarşı sanksiyaları ləğv edə bilməz. İkinci hadisə isə budur ki, Senat tətilə çıxmazdan əvvəl xüsusi prosedura tətbiq edərək prezidentin senatorlar tətildə olduğu müddətdə yeni təyinat həyata keçirməsini əngəllədilər. Hər iki məsələ demək olar ki, yekdilliklə qəbul olundu. Bu, respublikaçıların Trampa etimadsızlığının bariz göstəricisidir. Əhali arasında populyarlığı da minimal səviyyədə olan Tramp artıq respublikaçılar üçün ağır yükə çevrilir. Bu isə o deməkdir ki, impiçment üçün siyasi zəmin tədricən yaranmaqdadır və kifayət qədər hüquqi əsas olacağı təqdirdə, bu mexanizmin işə düşməsi mümkündür".

❑ **K.RÖVŞƏNOĞLU**

# İraq məsələsi və "Həşdi Şabi"



Kənan RÖVŞƏNOĞLU

## Qərb İraqın könüllü ordusundan niyə ehtiyat edir?

**İraqın könüllü ordusu "Həşdi Şabi" yenidən beynəlxalq qalmaqala səbəb olub. Əvvəlcə bir neçə gün əvvəl xəbər yayıldı ki, "Həşdi Şabi" İraqın Mosuldan sonra İŞİD-in əlində qalan ön böyük yaşayış məntəqəsi Telaferin azad edilməsində iştirak edəcək. Məsələ ondadır ki, Telafer uzun müddətdir ki. "Həşdi Şabi" qüvvələrinin mühasirəsi altındadır. Ancaq beynəlxalq aləmin təzyiqləri və Mosul əməliyyatının davam etməsi səbəbindən Telaferə hücum ləngiyirdi.**

Lakin az sonra xəbər yayıldı ki, "Həşdi Şabi" Qərb ölkələrinin təzyiqi nəticəsində Telafer əməliyyatından kənarlaşdırılır. Lakin ən son olaraq ordunun sözçüsü Əhməd əl-Əsədi deyib ki, Telafer əməliyyatına digər qüvvələrlə yanaşı, "Həşdi Şabi" də qatılacaq. Ancaq bununla bağlı son əmri ordunun ali baş komandanı, baş nazir Heydər Abadi verəcək. Öz növbəsində baş nazir Abadi də Telaferin azad edilməsi əməliyyatında "Həşdi Şabi"nin iştirak edəcəyini bildirib.

Maraqlıdır ki, Telafer əməliyyatı haqqında söz-söhbət yayıldığı günlərdə ABŞ aviasiyası "Həşdi Şabi"nin İraq-Suriya sərhədindəki qüvvələrini bombalaması xəbəri yayıldı. Ancaq sonradan məlumat təkzib olundu. Ancaq məlum oldu ki, "Həşdi Şabi" qüvvələrinə İŞİD hücum edib və ağır itkiyə məruz qoyub. Bir neçə nəfər, o cümlədən bir iranlı döyüşçü əsir götürülüb və sonradan nümayişkaranə şəkildə başı kəsilib.

"HƏşdi Şabi" nədən İraqda və onun sərhədlərindən kənarda bu qədər müzakirə və mübahisələrə səbəb olur? İllər uzunu normal ordu qura bilməyən, işğalın ağır təsirini aradan qaldırmamış, amansız terrorla mübarizə aparan İraqda onsuz da çoxlu sayda qüvvələrin olduğu bir vaxtda nədən yalnız bu qüvvə müzakirə və mübahisələrə səbəb olur?

"Həşdi Şabi" İraqın könüllü əsgərlərdən formalaşmış, 2016-cı ilin dekabrında parlament qərarı ilə rəsmi ordu statusu almış hərbi birləşmədir. Bu birləşmənin tərkibində neçə briqada mövcuddur. "Həşdi Şabi" 2014-cü ildə İŞİD Mosulu işğal etdikdən sonra din adamı Ayətullah Seyid Əli Sistaninin çağırışı ilə toplanmış könüllü dəstələrdən təşkil olunub. O zaman İraqın bir çox şəhərləri işğal olunurdu və bu səbəbdən din alimlərinin çağırışı ilə könüllü müqavimət dəstələri formalaşdırıldı.

"Həşdi Şabi" qüvvələrinin ümumi sayı 300 min nəfərə yaxın olsa da, aktiv döyüşçü gücü 135 min nəfər hesab olunur. Dəqiq sayı və çeşidləri məlum olmasa da, "Həşdi Şabi" güclərinin tank, ağır artilleriya, döyüş maşınları və sair silah və texnikası var.

Yeri gəlmişkən, "Həşdi Şabi" İraqda rəsmi ordudan başqa yeganə könüllü birlik deyil. Hazırda İraq ordusu və polis qüvvələri ilə yanaşı kürd peşmərgələri, sünni tayfa silahlı dəstələri mövcuddur. Ancaq bir neçə səbəbə görə "Həşdi Şabi" daha çox seçilir və BMT, ABŞ və eləcə də bir sıra ölkələrin İraq mərkəzi hökumətinə iradlarına səbəb olur.

Baxmayaraq ki, 130 minlik "Həşdi Şabi" güclərinin tərkibində hökumətin məlumatına görə, 15 min nəfər sünni tayfa gücləri yer alır, ancaq ümumilikdə "Həşdi Şabi" şiə silahlı qüvvəsi hesab edilir. Qruplaşmada dini ab-hava güclüdür, İraqın nüfuzlu dini liderlərinə bağlılığı var, qruplaşmanın tərkibində çoxlu sayda din adamı da xidmət edir. İkinci amil "Həşdi Şabi"nin qurulmasında İranın rolunun olmasıdır. Sirr deyil ki, bu ordunun yaradılmasında İran təlimatçıları, o cümlədən SEPAH-ın Qüds briqadasının və onun sirli komandiri Qasim Süleymaninin iştirakı var. Bu kimi faktlar "Həşdi Şabi" üzərində İran təsiri olması fikrini yaradır.

Könüllü ordu olsa da, "Həşdi Şabi" artıq İraq mərkəzi hökumətinə tabedir. Dövlətdən maaş alır, ordunun əsas komandiri də baş nazirin hərbi məsələlər üzrə köməkçisi Falih əl-Fəyyazdır. Ancaq ordunun əsas döyüş komandiri Mehdi əl-Mühəndisdir. İraq hökuməti "Həşdi Şabi"ni indi istifadə edə bilməsə də, ehtiyat güc kimi əlində tutur, yeni terror təhdidi və Şimali İraqda kürdlərlə baş qaldıra biləcək ərazi mübahisələrindən doğan toqquşmalar üçün qoruyub saxlayır.

**Qərbi isə qorxudan başqa faktordur. Qərb İranın Livandan sonra İraqda ikinci Hizbullah yaradacağından ehtiyat edir. Çünki forma olaraq iki təşkilat çox oxşadır və mövcudluğunu qanunla rəsmiləşdirən "Həşdi Şabi" gələcəkdə hakimiyyətin əsas təminatçısı kimi çıxış edə və ikinci Hizbullah gücünə çevrilə bilər. İraq Livandan ən azı 6 dəfə böyükdür və zəngin enerji ehtiyatlarına malikdir.**

YENİ MÜSAVAT
N 168 (6782) 12 avqust 2017

# "Bank sektorunun vəziyyəti gələn ildən yaxşılaşacaq"

**Ekspert:** "1990-cı illərdə vəziyyət bundan da pis olub, ancaq düzəldə bilmişik"

**Manatın ard-arda devalvasiyasından sonra çətin duruma düşən ölkənin bank sistemi hələ də özünə gələ bilmir. Dünyanın məşhur reytinq agentlikləri olan "Standard & Poor's" (S&P), "Moody's" və "Fitch"ə də nəzər salsaq görərik ki, Azərbaycan banklarının reytinqləri aşağı salınıb. Hazırkı məqamda bir sıra banklar reytinq agentliklərindən imtina edib, bir qrup banklar isə ümumiyyətlə reytinq agentlikləri ilə əməkdaşlıq etmirlər.**

Bütün bunlarla bərabər banklar müştəri itirməyə də davam edirlər. Belə ki, Mərkəzi Bankın aylıq hesabatında qeyd olunur ki, Azərbaycanda bank sektorunun müştəri bazası aylıq müqayisədə 80 134 nəfər və ya 1,4% azalaraq 2017-ci il iyulun 1-nə 5 612 810 nəfər təşkil edib. Bank müştərilərinin 1,4%-ni və ya 78 257 nəfərini hüquqi şəxslər, 5 534 553 nəfər və ya 98,6%-ni fiziki şəxslər təşkil edib. Bank müştərilərinin 210 533 nəfər və ya 3,8%-i sahibkarlardır.

İyun ayı ərzində hüquqi şəxs olan bank müştərilərinin sayında 0,4% artım, fiziki şəxslərin sayında 1,4% azalma qeydə alınıb. Eyni zamanda sahibkarların sayında 2,4% artım müşahidə olunub.

Lakin bəzi ekspertlər hesab edirlər ki, növbəti ildən vəziyyət bir qədər qaydasına düşəcək. Buna səbəb isə neftin qiymətinin 50 dollar ətrafında qalması, Azərbaycanın ixracının artması, idxalının isə azalması, manatın sabitləşməsi kimi faktorlardır ki, bu da növbəti illər üçün nikbin proqnozlar verməyə dəlalət edir.

**Bank məsələləri üzrə ekspert Əkrəm Həsənov** "Yeni Müsavat"a bildirib ki, vəziyyət düzələ bilməyəcək qədər pis deyil:

"1990-cı illərdə vəziyyət bundan da pis olub, ancaq düzəldə bilmişik. Məsələ sadəcə olaraq neftin qiymətinə bağlı deyil. Neftin qiymətinin indiki haldan baha olması proqnozlaşdırılmır və bizi də bu qiymət qane etmir. Ona görə də ciddi islahatlar aparılmalıdır. Əgər bank sistemində belə bir islahatlar aparılsa, işləyə bilməyən banklar bağlanmalı, yaxud ən yaxşı halda digər banklara birləşdirilməlidir. Nəticədə isə problemli kreditlərin həqiqi qaytarılması prosesinə başlanılmalıdır. Faktiki olaraq problemli kreditlərin əksəriyyətini elə bank sahibləri, bankların inzibatçıları, Mərkəzi Bankın buna göz yumması əsnasında özləri yaradıblar. Bu problemlərin həlli başlayarsa, əlbəttə ki, bank sistemində vəziyyət düzələ bilər. Sadəcə olaraq bu gün hələ ki, heç bir əməli tədbir görülmür. Yalnız bəzi bağlanan banklar üzrə müəyyən addımlar atılır. Məsələn, Bank Standart-ı qeyd edə bilərik. Ümumilikdə isə deyə bilərik ki, heç bir işlər görülmür. Bunun də nəticəsidir ki, bankların vəziyyəti o həddə qədər pisləşir ki, onlar hətta beynəlxalq reytinq agentliklərinin də xidmətlərindən imtina edirlər. Hələlik bu prosesin müsbətə doğru dəyişəcəyini demək olmur. Daha bir vacib məsələ də budur ki, bank sistemi ölkə iqtisadiyyatından ələhiddə şəkildə qalıb, inkişaf edə bilməz. İqtisadiyyatın inkişafı üçün də müvafiq mühit hələ də formalaşdırılmayıb. Bəli, dövlət başçısının müvafiq göstərişləri, tapşırıqları var. Ancaq hələ ki, dövlət orqanlarının əksəriyyəti onlara əməl etmir".

**Ekspert bildirib ki, biznes mühiti inkişaf etməsə bank sisteminin belə bir şəraitdə özünə gəlməsi çətin olacaq:**

"Bu gün əllərində pulu olan banklar da bilmirlər ki, kimə kredit verib, gəlir əldə etsinlər. Banklar da kredit vermirlərsə, onların hansısa inkişafından söhbət gedə bilməz. Ölkədə 31 bank var, onlardan ən azı 10-nun vəziyyəti pisdir ki, bu banklar bazardan getməlidirlər. Məsələn, "AtaBank"ın adını çəkə bilərəm ki, bu bank konkret olaraq heç öhdəliklərini belə yerinə yetirə bilmir. Əmanətini qaytarmır, xarici vətəndaşlara olan borclarını vermir. Hətta məhkəmə qərarı olduğu halda belə bunu icra etmir. Bu bankla bağlı Maliyyə Bazarlarına Nəzarət Palatasına da müraciət etmişəm. Lakin heç bir cavab verilməyib. Aydındır ki, cavab verməyə sözləri yoxdur. Ötən ili rəsmi göstəricilərinə görə, ən böyük zərərlə bitirən banklar var. Əlbəttə ki, bu bankların bağlanacağını söyləmək çətindir. Çünki ola bilər ki, son anda bankın sahibi öz cibindən vəsait ayırdı. Yaxud da bankı kiməsə satdılar, vəziyyət düzəldi. Belə hallar istisna deyil. Son illərdə bu cür yollarla bir neçə bankı vəziyyətdən çıxarıblar. Ən bariz misal kimi Beynəlxalq Bankı göstərə bilərik. Bu bank faktiki olaraq müflis idi və vəsaiti 1 milyard dollara çatmırdı. Ancaq dövlət ona 3 milyard bağışladı, vəziyyət düzəldi. Əlbəttə ki, sonsuza qədər bu cür davam edə bilməz".




**Ə.Həsənov müştərilərin indiki məqamda nələrə diqqət etməli olduğunu da söyləyib:** "Müştəri ilk olaraq bankın maliyyə hesabatlarını dərc edib-etməməsinə baxmalıdır. Maliyyə hesabatlarını dərc etmirsə, deməli o bankda vəziyyət pisdir. Bundan başqa maliyyə hesabatının tam dərc edilməsinə də diqqət etmək lazımdır. Eyni zamanda bankların internet saytlarına da fikir vermək lazımdır ki, orada vəziyyət tamdır, yoxsa yox. Bu məsələlər vacibdir. Vətəndaşlar üçün ən təhlükəsiz banklar dövlət banklarıdır. Söhbət "Azər-Türk Bank" və "Beynəlxalq Bank"dan gedir. Dövlət vətəndaşlar qarşısında bu bankın öhdəliklərinə cavabdehdir. Vətəndaşın orada pulu bata bilməz. Şirkətlərə gəldikdə isə qeyd edim ki, onlar da bankın öz adını qorumasına diqqət etməlidir. Bu sırada "Paşa Bank" və "Kapital Bank" seçilir. Orada standartlar digərlərinə baxanda yüksəkdir. Həm də ona görə ki, onlar adi vətəndaşlara çox kredit verməyiblər".

❑ **Ə.RAİS**

# Bu il ən çox bahalaşan məhsullar - manat sabitdirsə, qiymətlər niyə artır?

**Ekspert:** "Bundan sonra da mərhələli şəkildə qiymət artımını görəcəyik"

**Bir müddətdir ki, Azərbaycanda milli valyutanın məzənnəsi sabit olaraq qalır. Manatın məzənnəsinin xüsusən də dollara nisbətdə sabiq qalması ölkədə qida və digər məhsulların da qiymətinə təsir edib. Belə ki, devalvasiyanın ilk aylarında olduğu kimi, kəskin qiymət artımı müşahidə olunmur.**

Lakin bazarda bütün məhsulların qiymətinin sabit qaldığını da söyləmək olmaz. Xüsusilə də idxal edilən yuyucu vasitələrin, gigiyenik məhsulların eləcə də bəzi ərzaq məhsullarının qiymətində artım az da olsa davam edir. Ekspertlərə görə, ölkədə qiymət artımı hələ bundan sonra da müşahidə ediləcək. Məlum olduğu kimi, artıq bir aya yaxındıq ki, "Aİ-92" markalı avtomobil benzininin pərakəndə satış qiyməti qalxıb. Bu faktorun da ölkədə məhsulların qiymətinin artımına təsir edəcəyi bildirilir.

Dövlət Statistika Komitəsinin yanvar ayı üçün yaydığı məlumatda isə qeyd olunur ki, son bir ildə qida məhsullarının istehsalçı qiymətləri orta hesabla, 31,6 faiz, içkilərin qiyməti isə 27,5 faiz bahalaşıb. Həmçinin qeyd olunur ki, ötən il rezin və plastik kütlədən məmulat buraxan müəssisələr qiymətləri 15,1 faiz, kimya məhsulları istehsalçıları 35,8 faiz, metallurgiya zavodları isə 28 faiz qaldırıblar.

Yanvar-iyul ayı üçün rəsmi rəqəmlərə görə isə istehlak məhsullarının və xidmətlərin qiymətləri 2016-cı ilin müvafiq dövrünə nisbətən 14 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 18,2 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 12,6 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 9,6 faiz bahalaşıb. Bəs növbəti aylarda bizi nə gözləyir?

**İqtisadçı ekspert Rəşad Həsənov** "Yeni Müsavat"a bildirdi ki, növbəti dövrlərdə də mərhələli şəkildə qiymət artımının şahidi olacağıq: "Bir neçə aydır ictimaiyyətin ciddi şəkildə müzakirə etdiyi məsələlərdən biri ondan ibarətdir ki, manatın məzənnəsinin sabitləşdiyi dövrdə istehsal məhsullarının qiymətləri nə üçün artır. Hökumətin hesabatlarından da məlumdur ki, 2017-ci ildə inflyasiya səviyyəsi 2015 və 2016-cı illərlə müqayisədə daha sərt formada özünü büruzə verir. Təxminən iyun ayına olan məlumata görə, ölkə üzrə rəsmi inflyasiya səviyyəsi 13.9 faizdir. Halbuki, devalvasiyanın sərt formada dinamika nümayiş etdirdiyi dövrlərdə inflyasiya səviyyəsi bundan aşağı idi. Bu, həqiqətən də haqlı narazılıq doğuran məsələdir. Çünki faktiki olaraq həm tədarüklə məşğul olan, həm də istehlakçı şirkətlər bir sıra hallarda qiymətin bahalaşmasını manatın məzənnəsindəki dəyişikliklə əlaqələndirməyə çalışırdı. Təbii ki, bu, hardasa belədir. Ancaq burada bizim diqqət edəcəyimiz əsas məqam məhz ondan ibarətdir ki, hazırda müəyyən qədər məzənnədəki sabitlik dövriyyəyə vəsait axınını təmin edən faktora çevrilib. Necə ki, əvvəlki illərdə iqtisadi resessiya istehlakda özünü sərt şəkildə büruzə verdi və bunun nəticəsində alıcılıq da kəskin şəkildə azaldı. Digər tərəfdən, nəzərə alaq ki, xüsusilə devalvasiya ərəfələrində hökumət adminstrativ üsullarla qiymət artımının qarşısını almağa cəhd göstərirdi. Bu faktorların birləşməsi nəticəsində bazarlar real qiymətləndirmə apara bilmədilər. Hazırda isə valyuta məzənnəsində müəyyən qədər sabitlik yaranıb. Bu isə bir sıra hallarda yığımlardan xərcləmələrə keçməyə əsas səbəb hesab oluna bilər. Çünki dinamika kəskin olan dövrlərdə əllərində vəsait olan insanlar xərcləmələri müəyyən qədər dayandırıb, gecikdirirlər ki, proseslərdə daha mənfəətli olsunlar. Ancaq elə ki, sabitlik yaranır onlar gözləmə mövqeyindən hərəkətə keçirlər və yığımların müəyyən bir qismini xərcləməyə başlayırlar. Bu isə istehlakı artırmaqla yanaşı, öz növbəsində bazarda digər bazar iştirakçıları olan İstehsalçılara və tədarükçülərə məhsulların qiymətlərini artırmaq imkanı yaradır. Düşünürəm ki, 2017-ci ildə müşahidə edilən devalvasiyanın əsas səbəbi bu məqamdır".



**Ekspert bildirib ki, qiymət artımına səbəb olan digər məsələ isə daha çox mövsümü xarakterli olur:** "Bildiyiniz kimi, bu ilin əvvəlində kənd təsərrüfatında müəyyən fəlakətlər və istehsalın həcmində müşahidə edilən azalma eyni zamanda Rusiya bazarlarına çıxışın müəyyən qədər daha rahat olması kənd təsərrüfatı məhsullarına təklifin azalmasına gətirib çıxardı. Bu isə öz növbəsində mövsümün üzərində qiymətləri şərtləndirən əsas faktor oldu. Təbii ki, hazırda yanacağın qiymətinin qalxmasının bazara təsirləri daha çox müzakirə mövzusudur və bu, qiymətləndirilir. Düşünürəm ki, istənilən halda əsas yanacaq vasitəsi hesab olunan benzinin qiymətinin qalxması son istehlak qiymətlərinin artımına səbəb olacaq. Proses bundan sonra da müşahidə ediləcək və nəticədə mərhələli şəkildə bazarda qiymətlərin artmasını görəcəyik".

❑ **ƏLİ**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



**Cəbhə xəttində erməni təxribatları davam edir. Təbii ki, hər dəfə də düşmən layiqli cavabını alır, həm də vaxtaşırı canlı itki verməklə. Bu təxribatların ötən ilin aprelindəki kimi Azərbaycan Ordusunun daha sərt və genişmiqyaslı hərbi əməliyyata əl atmasına gətirməsi də istisna deyil.**










# Danışıq xətrinə danışıq = işğalı legitimləşdirmək!

## Azərbaycan təcavüzkarın özünü rahat hiss etməsinə yardımçı olacaq heç bir sülh imitasiyalarında iştirak etməyəcək; **hərbi ekspert:** "Ermənistan təxribatları artırdıqca işğalın ömrü azalır..."

Bir çox analitiklərə görə, vəziyyətin indiki şəkildə qalması, yəni status-kvonun davam eləməsi mümkünsüzdür və gec-tez münaqişə tərəfləri arasında böyük toqquşma qaçılmaz olacaq. Hər halda Ermənistanın Dağlıq Qarabağ məsələsində pozucu, təxribatçı mövqeyinin qalması, sülh danışıqlarını bütünlüklə sabotaj eləməsi bu ehtimalı heç vaxt olmadığı qədər gücləndirib.

Gerçək belədir ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ara-sıra reallaşan, lakin nəticəsiz bitən görüşləri də müharibə riskini azalda bilməyib. Çünki deyildiyi kimi, işğalçı tərəf öz havadarlarına arxayın olaraq, maksimalist və radikal mövqe sərgiləməkdə davam edir.

***

Bu arada tanınmış qazax yazıçısı və ictimai xadimi Oljas Süleymenov Belçikanın Lyej şəhərində YUNESKO-nun təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransda çıxışı zamanı Azərbaycan və Ermənistan ziyalılarını Qarabağ münaqişəsinin həlli yollarını tapmaq üçün görüşməyə çağırıb. Xəbər verildiyi kimi, yazıçı MDB məkanındakı münaqişələrin nizamlanması üçün Qazaxıstanda konfrans keçirilməsini də təklif edib.

"Mən bu tribundan Bakıdakı və İrəvandakı, habelə Kiyevdəki və Moskvadakı həmkarlarıma bu xahiş və tələblə səslənirəm - görüşmək lazımdır", - deyə Oljas Süleymenov bildirib. Onun sözlərinə görə, hazırda ümumdünya fəlakəti bir addımlıqdadır və istənilən lokal münaqişə dünya müharibəsi mexanizmini hərəkətə keçirən tətik rolunu oynaya bilər. "Bu müharibə "homo sapiens" növünün nəslinin kəsilməsinə gətirib çıxarar. MDB məkanındakı münaqişələrin nizamlanmasının yolu danışıqlardan, müzakirələrdən keçir. Qazaxıstanın bu məqsədlə konfrans təşkil etməyə hazırdır" - Süleymenov əlavə edib.

***

Əlbəttə ki, tanınmış ictimai xadimlərdən belə humanist çağırışlar səslənməsi yaxşıdır. Hətta lazımdır da. Amma gərək etiraf edək ki, bu, illərdir sərsəm "miatsum" ideyası ilə yaşayan, "kompromis" deyərkən yalnız Dağlıq Qarabağın "müstəqilliyi" qarşılığında cəmi 5 rayonun işğaldan azad edilməsini mümkün sayan (bunu da Azərbaycana ən böyük güzəşt hesab edən!), qısası, öz halal torpaqlarımızı öz halal torpaqlarımıza dəyişməyi nəzərdə tutan Ermənistanı ağla gətirmək üçün yetərli deyil.

Fakt budur ki, Dağlıq Qarabağ məsələsində dinc yolla həll nail olmaq üçün sülh danışıqlarının, demək olar, önəmi qalmayıb - o ki ola ziyalıların görüşü hansısa müsbət nəticəyə gətirə. Əfsus ki, problem artıq ziyalıların çözə biləcəyi müstəvidə deyil. Belə görünür, hətta indi siyasətçilərin imkanları çərçivəsindən də çıxmaqdadadır.

Dinc yola gəlincə, bu yol yalnız təcavüzkara beynəlxalq güclər səviyyəsində sanksiyaların tətbiq ediləcəyi, ciddi təzyiqlər göstəriləcəyi təqdirdə mümkündür. Əks halda, müharibə qaçılmazdır. Yəni boş yerə nəticəsiz danışıqlara vaxt itirməyə dəyməz. Belə danışıqlar yalnız İrəvanın maraqlarına xidmət edir. Ona görə ki, işğal rejiminin uzanmasına nədən olur. Bakı təbii ki, mövcud durumun fərqindədir və status-kvonun süni şəkildə davam etməsinə, işğalçının özünü arxayın hiss etməsinə qarşıdır.

***

"Azərbaycanın prezidenti, Ali Baş Komandanı imitasiya xarakterli danışıqlara getməyəcəyini konkret olaraq bəyan edib". Bu barədə axar.az-a açıqlamasında hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov danışıb. Onun sözlərinə görə, Ermənistan cəbhəyanı bölgələri və dinc sakinləri atəşə tutmaqla Azərbaycanı adekvat addımlar atmağa təhrik etməyə çalışır ki, bu da İrəvanın çıxış yolunun tükəndiyindən xəbər verir.

"Qarabağ uğrunda müharibə davam edir, sadəcə olaraq, hələ təmas xəttində aktiv irimiqyaslı əməliyyatlar başlamayıb. Azərbaycan əsgəri öz yaşayış məntəqələrinin təhlükəsizliyini təmin etməklə bağlı hər ən böyük əmri yerinə yetirməyə hazırdır", - deyə o qeyd edib.

Ekspert bildirib ki, cəbhə xəttində ermənilərin son təxribatları müəyyən səbəblərdən qaynaqlanır: "Ermənistan hakimiyyəti ölkədə siyasi gərginlik olan kimi cəmiyyətin fikrini yayındırmaq üçün məhz bu cür təxribatlara əl atır. İkinci məsələ odur ki, Ermənistan danışıqlar ərəfəsində, beynəlxalq qurumların Qarabağla bağlı konkret təklifləri qarşısında aciz qalan zaman dərhal Qarabağda gərginlik yaradır".

Polkovnik Azərbaycan prezidenti İlham Əliyevin imitasiya xarakterli danışıqlardan çoxdan imtina etdiyini də xatırladıb: "Bu isə münaqişənin hərb yolu ilə həllinin yaxınlaşması deməkdir. Ermənistan təxribatları artırdıqca Qarabağın işğalının ömrü də azalır. Aprel hadisələri ermənilərə yaşayış məntəqələrini atəşə tutan zaman hansı nəticələrlə üzləşəcəklərini göstərib. Azərbaycanın imkanları böyükdür və tezliklə onlar işə salınacaq".

***

Yada salaq ki, ATƏT-in Minsk Qrupu həmsədrləri bu ilin sentyabrında Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünü təşkil etməyə çalışırlar. Prezident İlham Əliyev və Serj Sərksiyan arasında sonuncu təmas ötən ilin iyununda - Sankt-Peterburq şəhərində, Rusiya prezidenti Vladimir Putinin təşəbbüsü ilə baş tutmuşdu. Ancaq daha bir görüş nəyi dəyişəcək ki?

"Mən ümid edirəm ki, prezidentlərin növbəti görüşü zamanı tərəflər həmrəylik nümayiş etdirəcək və hətta tam nizamlanma əldə olunmasa da, müəyyən addımların atıldığını elan edəcəklər". Bunu Minsk Qrupunun amerikalı həmsədri Riçard Hoqland "Azadlıq" radiosunun Azərbaycan və Ermənistan xidmətlərinə müsahibəsi zamanı deyib.

Diplomat bildirib ki, münaqişənin həlli ilə bağlı çərçivə sazişi, onunla əlaqəli addımlar və mərhələlər mövcuddur: "Nizamlanmanın əsasında isə regionun əhalisinə sülh, təhlükəsizlik və rifah gətirəcək, vəziyyəti demilitarizasiya edəcək kompromisin axtarılması dayanır".

Səfir Rusiya-ABŞ münasibətlərinin danışıqlar prosesinə təsiri məsələsinə də toxunub: "İki ölkə arasında yaranmış gərginliyə baxmayaraq, ABŞ Rusiya ilə bu məsələdə işləməyə davam edir. Bizim işimizdə bir-birimizlə münasibətdə heç nə dəyişməyib. Siyasətçilər öz aralarında toqquşa bilərlər, lakin işimizi davam etdirmək niyyətindəyik".

**Ancaq əfsuslar olsun ki, həmsədrlik institutunun 23 ildir davam edən "işi" Dağlıq Qarabağ məsələsində hələ də simvolik irəliləyişə belə gətirməyib. On illər boyu nəticəsiz olan bir işi davam etdirməyə dəyərmi?**




## Azərbaycanın müdafiə naziri Moskvaya getdi

**Avqustun 11-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının müdafiə naziri, ordu generalı Sergey Şoyqunun dəvəti ilə Moskva şəhərinə səfərə gedib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, səfər çərçivəsində general-polkovnik Z.Həsənov "Beynəlxalq ordu oyunları - 2017" yarışlarının rəsmi bağlanış mərasimində iştirak edəcək.


Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT

N 168 (6782) 12 avqust 2017

# İşdə yaxşı nəticə gözləyənlər... işə getmədən bu yazını mütləq oxuyun!

## İş yerinizdə dress-koda uymaq üçün nələr etməlisiniz?..

**Qovurucu istilər işə gedib-gələnlərin geyim seçiminə ciddi təsir göstərir. İnsanlar istidən maksimum qorunmaq üçün daha rahat və sərbəst geyim tərzindən istifadə etməyə meyl göstərir. Halbuki... iş işdir.**

Və burada sərt qaydalar var. Hansısa firmada, mağazada, yaxud redaksiyada çalışan insan birbaşa həmin müəssisəni təmsil edir və bu səbəbdən geyiminə maksimum həssas yanaşmalıdır. Necə deyərlər, müdirlər heç də öz iş yerlərini çimərlik hesab etmirlər. Bu səbəbdən də yayda evdən çıxmadan öncə güzgüyə bir neçə dəfə baxmaq lazımdır. Bəli, adına dress-kod deyilən anlayış bütün böyük iş yerlərində qəbul edilib və işçilər də bir qayda olaraq ona əməl edirlər.

### İşçilərin geyimi firmanın məhsuldarlığını artırırmış

Bəzi yerlərdə dress-kod işdə-ofisdə əmək məhsuldarlığının artmasına gətirib çıxaran başlıca faktorlardan biri kimi görülür. Adətən belə deyirlər ki, dress-kodun qadınlara qarşı tələbləri kişilərə nisbətdə daha demokratikdir.

Ofis əməkdaşlarının ciddi işgüzar kostyumların tutqun və bağlı rəng çalarının və geyim tərzindəki yekdillik kampaniyanın nüfuzunu ehmalca ətrafdakıların diqqətinə çatdırır və bununla da müştəridə xoş təəssürat oyadır.

Dress-kod nəinki təşkilatın işgüzar tərzini əks etdirmək imkanı verir, həm də bəzi hallarda ofis işçilərinin libaslarında kampaniya loqotipini və ya firma simvolikasını yerləşdirməyə icazə verir. Bu fənd isə hətta çox da böyük olmayan kampaniyalara öz brendini inkişaf etdirmək və yadda qalan ticarət markasının obrazını yaratmaq imkanı verir.

### Bunları oxumadan geyim seçiminizi etməyin

Ümumiyyətlə, "Dress-kod" termini Böyük Britaniyada yaranıb və qısa müddətdə bütün dünyaya yayılıb. Müasir dress-kod qayda və standartların bütövlüyü, işgüzar insanın qəbul edilmiş normalarıdır. Geyim seçimində əsas qayda onu vaxta və şəraitə görə seçməkdir. Axı müasir dünyada nəinki geyimə görə qarşılayırlar, həm də yola salırlar. Ona görə də hadisənin, mərasimin mövzusuna uyğun geyinməlisiniz.

"White Tie" ifadəsi tərcümədə ağ qalstuk deməkdir. Balda, banketdə, diplomatik qəbullarda, cıdırda və toyda ciddi, rəsmi variant hesab edilir. Kişilər: kişilər üçün bu, qara frak, qara şalvar deməkdir. Ağ köynəyi ağ kəpənək qalstuk tamamlamalıdır. Ayaqqabı və corab yalnız qara rəngdə olmalıdır. Qadınlar: məhz belə gecəyə ipəkdən, məxmərdən və ya taftadan paltar geyinmək olar və lazımdır. Açıq dekolte sinə şalla örtülür, bəzək əşyaları ancaq bahalı metallardan olmalıdır, dirsəyə qədər əlcək taxılmalı və kiçik ölçülü çanta götürülməlidir. Saçlar səliqəli şəkildə hündür toplanmalıdır.

"Black Tie", "Cravate Noire", "Tuxedo" - dress-kodu ciddi gecə tədbiri, məsələn, teatr üçün nəzərdə tutulur. Kişilər: cüt və ya tək düyməli smokinq geyilir. Köynək isə ağ rəngdə olmalıdır. Kəpənək qalstuk qara rəngdə. Kişilər üçün vacib atribut enli qurşaq, yəni belbağı hesab edilir. Ayaqqabı da qara rəngdə olmalıdır. Döş cibində yaylıq və butonyör (yaxaya taxılan qönçəli sancaq) ola bilər. Qadınlar: donun uzunluğu dizdən yuxarı da ola bilər, döşəməyə qədər çata da bilər. Dəri və ya parçadan incə kəmərli saat və yaxud bahalı daş-qaşlı qolbaq, bilərzik taxmaq olar.




"Black Tie" ifadəsi ilə yanaşı "Invited" sözü yazıla bilər. Bundan başqa dəvətnamədən "Optional", "Creative" sözləri yazıla bilər. Bu, o deməkdir ki, qaydalara riayət etmək vacib deyil, obrazınıza yaradıcı yanaşa bilərsiniz. Qadınlar kişmir sviterlə uzun ipək yubka geyinə, kişilər isə standart olmayan rənglərdən istifadə edə bilərlər.

"Cocktail Attire" ailə şənlikləri, kokteyl və digər mərasimlər üçün münasibdir. Kişilər: qara kostyumsuz və qalstuksuz. Qadınlar: zərif və məlahətli görünməlidirlər. Bu dress-kod həm ofis, həm gecə üçün yararlıdır. Ona görə ki, həm kostyum, həm də kokteyl üçün donlar geyinmək olar. Özünüzlə kiçik ölçülü çantalar götürə, bijuteriya taxa bilərsiniz.

### Formal - rəsmi gecə mərasimi

"Black Tie" anlayışına çox yaxındır. Lakin bəzən geyimə yaradıcı yanaşmaq, dəbli detallardan istifadə etmək olar.

"Semi Formal" - yarı-rəsmi dress-kod. Kişilər: mərasimdən asılı olaraq pencəyin altından nazik cemper geyinə bilərsiniz. Qadınlar: saat 8-ə kimi şalvarlı kostyumlar və ya dəbdəbəli gündəlik don geyinə bilərsiniz. 8-dən sonra kokteyl üçün donlar, tutalım qara qısa don.

"Casual" Kişilər: bu dress-kod ən demokratikdir. Vəziyyətdən asılı olaraq işgüzar kostyumu köynək, sviter və ya jaketlə geyinə bilərsiniz. Cins, pencək, pambıqdan və ya trikotajdan futbolka geyinə bilərsiniz. Təbii ki, işgüzar xarakterli tədbirə daha ciddi variant seçsəniz yaxşı olar. Qeyri-rəsmi görüşlərə isə keyfiyyətli cins də geyinmək olar. Qadınlar: demək olar ki, hər şey geyinə bilər - gündəlik və ya ofis stilində donlar, həmçinin cins, yubka və s. Aksesuarları düzgün seçməklə obrazınızı tamamlaya bilərsiniz. Əsas odur ki, bayağı deyil, dəbli görünəsiniz.

"A5" ("After five") Bu dress-kod saat 5-dən sonra restoran və ya kafedəki çağırılmış dəvətlər, mərasimlər üçün münasibdir. Kişilər: işgüzar kostyumla rəngli, parlaq köynək geyinə bilərlər. Qadınlar: mütləq gözəl, bayramsayağı, gündəlik geyimdən fərqli geyinməlidirlər.

### Jurnalistlər tədbirə yox, kabab partisinə gəlirmiş kimi geyinirlər

Bundan bir neçə il öncə Rusiya hakimiyyəti məmurları təhqir etdiyini əsas gətirərək jurnalistlər üçün "dress-kod" tənzimlənməsini təklif etdi. Məmurların fikrincə, ciddi dövlət qurumlarının mətbuat konfranslarına qatılan jurnalistlərin geyimi "dostlar ilə kabab partisinə gələn"lərin stilini xatırladır. Onların fikrincə, bu geyim tərzi jurnalistlərin etik norması ilə tənzimlənməlidir. Cırıq cins şalvarlar, bədənə kip sarılmış maykalar, vyetnamkalar, həddən artıq qısa yubkalar... bunların heç biri jurnalistin əynində olmamalıdır.

Moskva merinin mətbuat katibi Serqey Tsoy bildirib ki, məmurlar məcburi kostyum-şalvar və ya uzun paltarlarla bağlı şərt qoymurlar. Yeganə tələb təmiz və etik tərzdə geyinmədir. Hətta bununla bağlı müvafiq göstəriş də verilib. Belə ki, nazirlik binalarının mühafizəçiləri göstərilən normalara müvafiq geyinməyən jurnalistləri tədbirlərə buraxmırlar.

Bəzi tədbirlərdə isə jurnalistlərə qarşı belə yoxlama prosesi olmasa da, onların kimliyi, hansı media orqanını təmsil etməsini asanlıqla müəyyənləşdirirlər. Tədbirlərdəki qeydiyyat vərəqi məhz bunun üçündür. Tədbirin təşkilatçısı həmin vərəqi məhz mətbuat konfransı zamanı verir, hər kəs özünü, çalışdığı media orqanını ora qeyd edir. Son nəticədə isə təşkilatçı qeyri-etik geyimli jurnalisti belə müəyyənləşdirib, redaksiyaya bu barədə şikayətlə müraciət edir, bir daha həmin jurnalistin tədbirə gəlməməsini tapşırır.

Jurnalistlərin geyiminin yaratdığı bir qalmaqala nəzər salaq: rusiyalı müğənni Filip Kirkorovla jurnalist İrina Aroyan arasında qalmaqal məhz sonuncunun açıq-saçıq geyiminə görə baş vermişdi. Mətbuat konfransında müğənniyə sual vermək istəyən jurnalist ondan məhz bu cavabı eşitmişdi: "Mən istəmirəm ki, siz şəklimi çəkəsiniz. Siz məni bezdirmisiz. Sizin çəhrayı, bədənə yapışmış koftanız, onun altından görünən bədən üzvləriniz, eləcə də mikrofonunuz məni qıcıqlandırır. Mən qeyri-professionalları sevmirəm, bura onların yeri deyil. Siz istəyirsiniz mən burdan gedim? Xeyr, digər həmkarlarınıza hörmət etdiyim üçün getməyəcəm. Amma əvəzində siz gedəcəksiz".

Bu sözlərə əhəmiyyət verməyən jurnalist xanımın növbəti sual vermə cəhdi isə F.Kirkorovun onun üstünə cumması ilə nəticələnmişdi. Nəticədə Rusiya mətbuatında geyim qalmaqallarından biri yaşanmışdı.

### Jurnalist müsahibin zövqünə uyğun geyinməlidir?

Elə bu məqamda da jurnalistikanın qızıl qaydalarından biri yada düşür: əgər sən müsahibini danışdırmaq, onu cəmiyyətə yaxşı yöndən tanıtdırmaq istəyirsənsə, onun geyim zövqünü də əvvəlcədən öyrənməlisən. Bu yaxınlarda Amerika qəzetlərindən birində striptizçi bir qadınla olduqca maraqlı bir müsahibə yayımlanmışdı. Müsahibəni götürən qadın jurnalist idi. Məlum olmuşdu ki, ümumiyyətlə, striptiz barda çalışanlar üçün mətbuat işçiləri sevilməyən personalardır. Amma müsahibəni götürən jurnalist bara elə bar geyimində gedib. Orada olarkən pivə içib, siqaret çəkib və müsahibini onun özünə yaxın hiss etməsi üçün əlindən gələni edib. Yoxsa ki, "həyatın dibinə necə düşdünüz" tipli sualla və ciddi geyimlə bu cür şəxsi heç cür danışdırmaq olmaz.

Ona görə də dünya jurnalistləri hesab edirlər ki, geyimləri onlara iş prosesində kömək edə bilər. Jurnalistika bir növ aktyorluq sənəti kimidir, hər an rola girmək, qiyafə dəyişmək bu işin qızıl qaydalarındandır. Geyimlə həmsöhbətə "özümüzünkü" olduğunu göstərmək, onunla eyni dalğada dolaşdığımız mesajını verməliyik.

### Qul bazarına dəst kostyumda, rəsmi tədbirə cırıq şalvarda getmə!

Ekspertlər hesab edir ki, jurnalistin vəzifəsi nə qədər aşağıdırsa, qarderobuna bir o qədər çox fikir verməlidir. Təbii ki, əgər bütün ömrü boyu aşağı statusda işləmək istəmirsə. Çünki jurnalistin hər cür situasiyaya uyğun geyimi olmalıdır.

Məsələn, sən hansısa səfirliyin kokteyl dəvətinə dizi cırıq cins şalvar, topik və "şap-şap"la gedə bilməzsən. Bu, öncə özünə, sonra isə təmsil etdiyin media orqanının adına minus sayılır. Amma eyni zamanda bir qul bazarına reportaja da kostyum-şalvarda, qalstukda, dikdaban ayaqqabıda getməyin qeyri-professionallıq sayılacaq. Redaksiyaya gələn şikayətçi ordakı işçilərin geyiminə baxıb, bu media orqanının nə qədər etibarlı, ciddi olmasına qərar verir ürəyində. Yüzlərlə, minlərlə insanın problemindən yazdığını iddia edən jurnalistin geyim seçimi ilə bağlı anormallığı, problemi onun ciddiliyinə də xələl gətirir.

Yaradıcı adamın səliqəli, eyni zamanda fərqli geyim tərzi onun yaradıcı insan kimi qabiliyyətinə də tərif gətirir. Bu mövzuda diqqəti çəkən əsas nüans isə heç şübhəsiz ki, reportyor geyimidir. Ekspertlər birmənalı şəkildə işi daim qaçaqaçda olan reportyorların maksimum rahat geyim tərzinə müraciət etməli olduğunu deyir. Praktik şalvar - bir neçə cibi olsun, içinə qələm, bloknot, müxtəlif aparatlar yerləşdirmək mümkün olsun, krosovka və rükzaq... Reportyorun "qızıl üçlüyü" budur. Xanım reportyorlar üçün də bu qayda keçərlidir. Üstəgəl, heç bir halda dikdaban ayaqqabı geyinməmək. Bu, jurnalist işinin axsadılması anlamına gəlir.

Daha bir detal isə reportyorun öz geyimi ilə diqqət çəkməməsidir. Əgər sən hansısa hadisə yerinə partizan üsulu ilə gedib, ancaq məlumat toplamaq məqsədi daşıyırsansa, geyimin də "qışqırmamalı"dır. Heç kəs səni "həəə, o şortikli oğlan jurnalistdir", ya da "qısa paltarlı qız bizdən yazmağa gəlib" deyə xatırlamamalıdır.

**Ya da reportyor heç bir halda hadisə yerinə xəz dəridə getməməlidir. Tutaq ki, bədbəxt bir hadisə baş verib, jurnalist də onu yazmağa və ya çəkməyə gedib. Axşam xəbərlərində jurnalist son dərəcə bahalı şubası ilə qəza barədə xəbər verir. Bu zaman bütün diqqət avtomatik olaraq onun şubasına yönəlir ki, bu da heç korrekt deyil. Əksinə, vulqar, həyasız görüntüdür.**

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 168 (6782) 12 avqust 2017

# "Qarabağ partizanı"nın həbsindən 14 il ötür

## Ömürlük məhbusun anası: "Ümidim qırılıb..."

**Ömürlük həbs cəzası alan və daha çox "Qarabağ partizanı" adı ilə məşhur olan Məmməd Məmmədovun həbsindən bu günlərdə 14 il ötür. Kiçik yaşlarından atasını itirən, ailənin yeganə övladı olan M.Məmmədov hazırda Qobustan həbsxanasında cəzasını çəkir.**

Ömürlük məhbusun anası Təranə Məmmədova hazırda ağır xəstəlikdən əziyyət çəkir və oğlunun azad olunması üçün aidiyyəti qurumlardan, hər kəsdən imdad diləyir.

**"Qarabağ partizanı"nın özünün də səhhətində ciddi problemlər var. Təranə xanım övladının həbsinin 14-ci ilində "Yeni Müsavat"a müraciət edərək, onun azad olunması üçün kömək istədi:** "Artıq oğlumun həbs müddəti 15-ci ilə keçir. Bu qədər haqsızlıq olmaz. Məmmədin gəncliyi məhv oldu getdi. Tək anayam, yeganə ümid yerim oğlumdur. Mən indi kimin üçün yaşayım? Həmin dəstənin üzvlərinin hamısı dəstə başçısı da daxil, azadlığa buraxılıb. Amma oğlum ömürlükdə yatır. Sonuncu dəfə Məmmədi iyun ayının 3-də görmüşəm. Artıq dözə bilmir. Deyir ki, ana bu qədər haqsızlıq olmaz, dözə bilmirəm. Prezidentimizə, Mehriban xanıma müraciət edib yalvarıram, oğlum azad olunsun. Bu dəstənin ən kiçik yaşlısı Məmməd olub. Təsəvvür edin ki, həbs edilən 22 nəfərin 21-nin üzərindən qanunsuz silahlı birləşmə yaratma ittihamı götürülüb, yalnız oğlumun üzərində saxlanılıb. Bu necə ola bilər axı? Bir nəfərdən ibarət necə dəstə ola bilər? Məmmədin üzərinə olmayan ağır cəzalar qoyublar. Hadisə baş verən vaxt qaçaqaçda Məmməd necə kimisə xüsusi amansızlıqla öldürə bilər? Xahiş edirəm bu işə yenidən baxılsın. Heç olmasa, Məmmədin cəzasını ilə çevirsinlər. 20 yaşından Məmməd həbsdədir, artıq evlənmək vaxtı da keçib, heç olmasa indi azadlığa çıxsın. Oğlumu yenidən həyata qaytarsınlar, onu mənə bağışlasınlar. Bütün aidiyyəti qurumlardan kömək istəyirəm. Onlara yalvarıram. Özüm ağır xəstəyəm, ayaqlarım tutulub. Ömrümü yalnız o uşağa bağışlamışam. Ondan başqa kimsəm yoxdur. Azad etsələr, mən də



heç olmasa kimin üçün yaşadığımı bilərəm. Daha ümidim qırılıb, hər şeyim tükənib. Bundan sonra azad olunsa, Məmməd kimin üçün təhlükəli ola bilər ki? Qapımı kimsə açmır. Bu gün yaşayıram, sabah yaşacağıma inanmıram. Məmməd 20 yaşında ola bilər ki, səhvə yol versin. Heç o ölüm hadisəsində oğlumun günahı yoxdur. Digər şəxslərə aşağı cəzalar verildi, amma ən ağır cəzanı Məmmədə kəsdilər. Bu cəzanı verəndə heç fikirləşdilər ki, bu insan ömrüdür?"

Qeyd edək ki, Məmməd Məmmədova qarşı Cinayət Məcəlləsinin 120.2.3, 120.2.4, 120.2.10-cu (qəsdən adam öldürmə), 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.10-cu (qəsdən adam öldürməyə cəhd) maddələri üzrə ittiham irəli sürülüb. "Qarabağ partizanları" kimi adı hallanan qrup Qarabağda ermənilərə qarşı "Partizan müharibəsi" aparmaq məqsədilə yaradılıb. Qrupun 22 nəfər üzvü olub. Dəstəyə Rövşən Bədəlov adlı gənc rəhbərlik edib. "Qarabağ partizanları"nın işini Milli Təhlükəsizlik Nazirliyi (indiki DTX) araşdırıb.

İstintaq materiallarına görə, "Qarabağ partizanları" xüsusi dəstə yaradıblar, silah əldə ediblər və döyüşmək üçün Qarabağa getmək istəyiblər. Qrupun necə yaradılması məlum olmasa da, 2000-ci illərdən sonraya təsadüf etdiyi ehtimal edilir. Dəstə üzvləri 2001-ci ildə Gürcüstan ərazisində təlim keçiblər. 2003-cü ilin 13-14 avqustunda Qarabağa yollanmaq üçün sonuncu dəfə Xətai parkında toplaşıblar. Lakin bu zaman MTN əməkdaşları tərəfindən həbs ediliblər. Bu əməliyyat zamanı baş verən atışmada bir əməliyyatçı həlak olub, bir nəfər isə ağır yaralanıb. M.Məmmədovun işinə ayrıca baxılıb. Çünki həmin qətldə onu günahlandırıblar. Sonradan dəstənin digər üzvlərinin üzərindən mütəşəkkil dəstə yaratmaq ittihamı götürülüb. Yalnız M.Məmmədovun işində bu ittiham saxlanıb.

❑ Cavanşir ABBASLI

# Onlar uşaqlarını bu cür tərbiyə edir - məmurlar üçün nümunə...

## Az pul, bol diqqət və sınaqlar - nəticədə uşaq qudurğan yox, zəhmətkeş böyüyür...

**Cəmiyyət olaraq ölkənin zəngin övladlarının etdiyi qudurğanlıqları, harınlıqları izləməklə məşğuluq. Bəli, dövlət məmurlarının pulu o qədər çoxdur ki, onlar bu pulla övladlarını ərköyünləşdirmək üçün əllərindən gələni edirlər. Ən bahalı maşınlar, astronomik məbləğdə cib xərcliyi, sonsuz kredit... və nəticə ya qudurğan bir məmur oğlunun insan ölümünə səbəb olan yol qəza hadisəsi, ya da silahlı atışma, dava-dalaş, bir sözlə, insident.**

*O halda nə etməli? Necə etməli?*

Sıradan insanlar övladlarının problemlərini yoluna qoymaq üçün dəlilər kimi çalışırlar. Varlılar isə o pulları övladlarına verəndən sonra onun yoldan çıxmaması barədə düşünürlər. Çox vaxt da düşünmürlər. Amma pul, varidat heç də hər zaman yaxşı övlad tərbiyə etməyə səbəb olmur. Maraqlıdır, dünya varlıları öz uşaqlarını necə tərbiyə edir? Pul çox, sərhədlər şəffaf, "olmaz" sözü leksikondan çıxarılıbsa, problemin həlli nədədir?

"Yeni Müsavat" mövzunun aktual olduğunu nəzərə alıb, dünya mətbuatına istinadən bu nümunələr və çıxış yolları barədə yazıb. Öncə ondan başlayaq ki, zəngin insanlar uşaqlarında məqsədin uşaqlıqdan yaranmasına imkan verirlər. Onlar aparıcı universitetlərin gələcək məzunlarını tərbiyə edirlər. Bu uşaqlar nəticədə istedadlı həkim, hüquqşünas və uğurlu rəhbər olurlar. Amma insanların əksəriyyəti körpələrini "o, hələlik çox kiçikdir", "sonra müəyyən edərik" kimi fikirlərlə tərbiyə edirlər.

Əlbəttə, valideyn gələcəyi haqqında fikirləri ilə uşağın beynini doldurmalı deyil. Amma o, uşağın öz hədəfinə çatmasına yardım etməlidir. Digər tərəfdən, uşaqlara bi-



liklərə sevgini aşılamaq lazımdır. Və nəticədə o, tezliklə öz yolunu seçəcək.

Əksər milyonçular uşaqlarını müasir texniki avadanlıqlardan uzaq tutmağa çalışır. Məsələn, onların ilk kompüteri atalarına məxsus olur. Bəzi milyonçular isə ümumiyyətlə, evində televizordan belə istifadə etmirlər. Çünki mobil telefon insana öz vaxtını planlaşdırmağa imkan vermir. Televiziya da həyatın şablon modellərini göstərir. Əgər uşaq televizora baxmayacaqsa, onda bu asılılıq ondan ötüb keçəcək. Yanaşma təxminən bundan ibarətdir.

Uşaqlar onların valideynləri üçün işləməyin necə ağır olması, həmçinin pis kolleqalar və başqa neqativ hallar haqqında daim eşidirlər. Uşaqlar erkən yaşlarından artıq özlərini belə "proqramlaşdırırlar" ki, işləmək nə isə ağır və xoşagəlməz bir şeydir. Nümunəvi valideynlərin ailəsində uşaqlar artıq iki yaşdan evdə sadə işlərə kömək etməyə başlayırlar. Çünki uşaqlar bilməlidir ki, həyatda heç nə pulsuz olmur. Bu, xarakteri möhkəmləndirir.

Bir çox valideynlər uşaqlarına ehtiyac olmadan pul xərcləməməyi öyrətmək istəyirlər. Amma bəzi milyonçu ailələrin evində belə qayda var: kim 10 dollar yığacaqsa, daha 10 dollar qazanacaq. Uşaq lazımi məbləği yığdısa, onu yalnız faydalı şeylərə xərcləyə bilər. Məsələn, bu, inkişafa imkan yaradan musiqi aləti, velosiped, stolüstü oyun ola bilər. "Yeni şeyləri ona görə almaq lazım deyil ki, onu başqaları da alır. Bu, mənasızdır" - evdəki əsas yanaşma budur.

Uğurlu insanlar, bir qayda olaraq, əliaçıq olurlar. Onlar bölüşməyə həmişə şaddırlar. Milyonçuların uşaqları qazandıqları pulların 10%-ni kasıblara verir, pulun 30%-ni isə özlərinə oyuncaqlar almaq və əyləncələr üçün saxlayırlar. Qalan məbləği isə onlar gələcək ideyaları üçün saxlayırlar.

Üilliams Group kompaniyasının araşdırmasına görə, əksər milyonerlər varlı qohumlarından miras qalmış pulları artıq ikinci nəsildir ki, xərcləyirlər. Britaniyanın "Time" qəzetinin yazdığına görə, 70 faiz imkanlı ailələrin pulları nəvələri tərəfindən mənimsənilir. Ailələrin 90 faiz pulu isə nəticələri tərəfindən məhv edilir.

Bu məsələ ilə məşğul olan Amerikanın U.S.Trust kompaniyasının sədri Kris Haylmann bildirir ki, investisiya potensiyalı 3 milyon dollardan çox olan insanlar arasında aparılan sorğu göstərir ki, 78 faiz varlı adamlar onların pullarını övladlarının idarə edə biləcəyinə inanmır.

Çinin Sarita İnstitutu yerli milyonerlər üçün süfrə mədəniyyəti, lüks markaların tələffüzü, uşaq tərbiyəsi kimi dərslərin verildiyi kurslar açıb. Kursun əsas məqsədi Qərb dövlətlərində ziyafətlərə, iş görüşlərinə gedən varlı insanların orada "biabırçı vəziyyətə" düşməmələrinə kömək etməkdir.

İnstitutun müəllimləsi Sara Ceyn Ho İsveçrədə öyrəndiyi etika qaydalarını artıq 200-dən çox insana öyrədib, indi də işini genişləndirmək qərarına gələrək kurs açıb. Dediyinə görə, əvvəllər ancaq "Rolls Royce" sahibləri onun dərslərinə qatılırdılarsa, indi Avropa mədəniyyəti ilə maraqlanan orta təbəqədən olan evdar xanımlar, tələbələr, dövlət adamları da gəlirlər.

**Maraqlıdır ki, çinlilər avropalı görünmək üçün böyük məbləğdə pul xərcləməkdən çəkinmirlər. 10 nəfərlik qrupla keçirilən yarım günlük kursun qiyməti 3243 dollardır. "Qonaq qarşılama" dərslərinin müddəti isə 12 gün, xərci 16 min dollardır.**

❑ Sevinc TELMANQIZI

# Məcburì köçkün evìnə qaz sayğacı qoydura bìlmìr...



## "Nar" qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş abituriyentlərə xüsusi mükafatlar təqdim etdi

nar
Gəlin birlikdə böyüyək

**"Nar" çoxşaxəli korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində 2017-ci ildə ali məktəblərə qəbul imtahanları zamanı ən yüksək nəticə göstərərək 700 bal toplamış abituriyentləri dəyərli hədiyyələrlə mükafatlandırdı. 10 avqust 2017-ci il tarixdə modern.az saytı ilə birgə təşkil edilən, ictimaiyyət və media nümayəndələrinin iştirakı ilə keçirilən mükafatlandırma mərasimində Azərbaycanın müxtəlif bölgələrini təmsil edən və ilin ən uğurlu abituriyenti adını qazanan 15 gəncə "Nar" operatoru adından ən müasir smartfonlar, eləcə də mobil internet və zənglər üçün ödənişsiz balans təqdim edildi.**

**Tədbirdə iştirak edən qonaqlar abituriyentlərlə yaxından tanış olmaq və onları şəxsən təbrik etmək imkanı qazandılar. "Nar" operatorunun ictimaiyyətlə əlaqələr üzrə rəhbəri Əziz Axundov da öz növbəsində, gəncləri təbrik edərək onlara gələcək karyeralarında müvəffəqiyyətlər arzuladı:**

**"Bu böyük uğura imza atmış gənclərimizi "Nar" adından təbrik etmək bizi çox fərəhləndirir. Məhz göstərdikləri yüksək əzmkarlıq və çalışqanlıq kimi təqdirəlayiq xüsusiyyətlər sayəsində gənclərimiz bu nailiyyəti əldə ediblər. İnanıram ki, bu uğur digər gənclərimiz üçün əla bir stimul olacaq və gələcəkdə onların böyük uğurlara imza atmalarını şərtləndirəcək", - deyə Əziz Axundov sözlərinə əlavə etdi.**

**Qeyd edək ki, təhsil "Nar" operatorunun KSM strategiyasının ən vacib istiqamətlərindən biridir. Gənclərdə oxumaq həvəsi oyatmaq, layiqli təhsil almaları üçün onlarda motivasiya yaratmaq mobil operatorun ən ümdə məqsədlərindən biridir. Belə stimullaşdırıcı proqramlardan biri də Azərbaycan Texniki Universiteti ilə imzalanmış tərəfdaşlıq müqaviləsi çərçivəsində həyata keçirilir. Belə ki, mobil operator universitetdə ən müasir avadanlıqlarla təchiz edilmiş "Nar" GSM laboratoriyası yaratmış, semestr ərzində Radiotexnika və rabitə fakültəsinin ən yaxşı nəticə göstərmiş tələbələrini xüsusi hədiyyələrə layiq görmüşdür. Təhsil və maariflənmənin inkişafına xüsusi önəm verən "Nar" bu kimi təşəbbüslərlə tələbələrə dərslərində daha uğurlu olmaları üçün əlavə stimul verməyə çalışır.**

**"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilmişdir. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir. 2,3 milyon istifadəçisi olan "Nar" hazırda ölkə ərazisinin 99%-ni əhatə edən və 6000-dən artıq baza stansiyasından ibarət olan geniş şəbəkəsi ilə abunəçilərinə yüksək keyfiyyətli xidmət göstərir.**



**Paytaxtın Mehdiabad qəsəbəsinin sakini Məmmədov Süleyman Adil oğlu redaksiyamıza gələrək qaz sayğacı ilə bağlı üzləşdiyi problemdən şikayətlənib. Ermənistandan məcburi köçkün olan şikayətçinin sözlərinə görə uzun müddətdir ki, ruhi xəstə olan bacısının evinə qaz və işıq sayğacları çəkdirə bilmir. Səbəb isə yaşadıqları ərazi üçün sənəd ala bilməməsidir:**

"3 qardaşım və iki bacım Mehdiabad qəsəbəsində yaşayır. Kiçik bacım 2-ci qrup ruhi xəstədir, işləyə bilmir. 1988-ci ildə Ermənistandan məcburi köçkün olub Bakıya gələrkən yolda bizə hücum olmuşdu. Bu səbəbdən bir hərbi hissənin kənarında gizlənib, bir aya qədər orda yaşamışdıq. Bacım ordakı səs-küydən qorxduğu üçün xəstələndi. Hazırda qeyd etdiyim kimi, kiçik bacım heç bir yerdə işləmir, sadəcə 47 manat pensiya alır. Digər bacım ona baxır, işləyir, hətta bunun üçün ilə həyatı da qurmayıb. Hazırda bacılarım Mehdiabadda bir həyət evində qardaşımın ailəsi ilə birgə qalırlar. Doğrudur, bir həyətdə ayrı-ayrı evlərdə yaşayırlar, amma ümumi olaraq kommunal təchizatları birgədir. Limit məsələsi ortaya çıxandan sonra hər bir evə ayrı-ayrılıqda qaz və işıq sayğaclarının çəkilməsini düşündük. Bunun üçün müxtəlif aidiyyəti orqanlara müraciət etdik. Əvvəlcə çalışdıq ki, pulsuz sayğac əldə edək. Bununla bağlı "ASAN xidmət"ə müraciət etdim, evin sənədini göstərdim. Lakin mənə bildirildi ki, sənəddə yaşadığımız ərazi kənd təsərrüfatı üçün nəzərdə tutulub, yaşamaq üçün deyil. Yəni həmin torpaqlar pay torpaqlardır, buna baxmayaraq hər kəs bu torpaqları alaraq, üzərində yaşayış evi tikib. Demək olar ki, ətrafımızda hər kəsin özünə məxsus işıq, qaz sayğacları var, yalnız bizdən başqa. Vaxtında qonşularımız kimi ayrıca sayğac çəkdirmədiyimizdən, indi bu problemi yaşayırıq".

**Şikayətçinin sözlərinə görə təkrar müraciətləri də nəticəsiz qalıb:**

"Məcbur qalıb "Azəriqaz" İstehsalat Birliyinə getdim. Ordan da bildirdilər ki, "heç bir köməklik göstərə bilmərik, bunun üçün ayrıca qurum yaradılıb". Həmin qurumu axtarıb tapdım. Qurumdan isə bildirdilər ki, 262 manat dövlət rüsumu ödəməlisən, yerdə qalan materialı da özün almalısan. Bu arada "Azəriqaz" İB-dən də məktub gəldi ki, siz mənzilinizi öz hesabınıza sayğacla təmin etməlisiz. Məsələ burasındadır ki, yaşadığımız ərazi ilə bağlı sənəd ala bilmədiyimizdən, nəinki pulsuz, heç öz hesabımıza da sayğac quraşdıra bilmirik. Mehdiabad qəsəbəsinin bələdiyyəsinə də müraciət etdik, bu qurumdan da bizə köməklik göstərilmədi.

Bununla bağlı bizə köməklik göstərilməsini xahiş edirik".

**Məsələ ilə bağlı adı çəkilən qurumların da rəyini dərc etməyə hazırıq.**

❑ X.GƏRAY

## Xocalı köçkünündən "Qaçqınkom"a ittiham

Vətəndaş qurumun balansında olan evlərin 18 min manatdan satıldığını, qarşı tərəf bunun şər-böhtan olduğunu deyir




**Xocalıdan məcburi köçkün olan Zeynalov Budaq İbrahim oğlu redaksiyamıza gələrək şikayətlənib. Şikayətçinin sözlərinə görə, 26 ildir ki, didərgin həyatı yaşayırlar və ailəsi bu günə qədər evlə təmin olunmayıb. Lakin ötən ilin sonunda 89 yaşlı anası Zeynalova Turanə Səlim qızına Ramana qəsəbəsindən ev verilsə də, bu sevincin ömrü çox qısa olub:**

"Evlə bağlı bütün aidiyyəti orqanlara müraciət etmişdik. Lakin 26 il idi ki, ev verilmirdi. Nəhayət, sonda anama bildirdilər ki, harda boş ev olsa, orada yaşayın. Biz də axtardıq, məlum oldu ki, Ramana qəsəbəsində 67 nömrəli ev boşdur. Lazımi qaydada evə yığışıb, yaşamağa başladıq. Lakin bir neçə gün keçməmiş Xocalı Rayon İcra Hakimiyyətinin müavini gəlib bizə dedi ki, ya 18 min verin, ya da evdən çıxın. Anam da dedi ki, pulumuz olsaydı ev alardıq. "Qaçqınkom"dan olan evlər 18 mindən başlayaraq satılıb. Bildirdik ki, bununla bağlı aidiyyatı orqanlara şikayət edəcəyik".

**Vətəndaş deyir ki, ardınca icra hakimiyyəti onu həbsə atdırmaqla təhdid edib və evi boşaltmaq şərti qoyub:** "Ultimatum verdilər ki, ya oğluna "iş" verəcəyik, ya da evdən çıxın! Anam da dedi ki, eviniz lazım deyil, oğlumu verin. Evi isə vəhşicəsinə dağıtdılar, əşyalarımızı bərbad hala saldılar".

Şikayətçi iddia edir ki, dəlil-sübut kimi bütün bunları əks etdirən video görüntülər, fotolar var: "Aidiyyəti qurumlara onları təqdim edə bilərəm. Lakin hansı quruma müraciət etmişəmsə, heç bir nəticəsi olmayıb, məsələyə heç kəs baxmaq istəmir. 26 ildə bir qoca anama ev verdilər, bu da belə..."

**Mələyə aydınlıq gətirmək üçün "Yeni Müsavat"ın əməkdaşı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ilə əlaqə saxlayıb. Qurumdan bildirilib ki, şikayətçinin ittihamları tamamilə əsassızdır:**

"Məsələ ilə əlaqədar Xocalı Rayon İcra Hakimiyyəti ilə birgə araşdırma aparıldı. Məlum oldu ki, Zeynalov Budaq İbrahim oğlunun ailəsinə Goranboy rayonu Yuxarı Ağcakənd qəsəbəsində mənzil verilib. Yəni dövlət tərəfindən həmin adam evlə təmin olunub. Ramana qəsəbəsində yerləşən 67 nömrəli evi isə onlar qanunsuz şəkildə zəbt ediblər. Bizə verilən məlumata görə, onun anası Zeynalova Turanə Səlim qızı Ramana qəsəbəsində yaşayan digər oğlu ilə birgə yaşayır. Onlar qeyd olunan mənzilin qapısını qanunsuz şəkildə qıraraq zəbt ediblər. Bildiyiniz kimi, bu da qanunvericiliyə zidd olduğu üçün mənzil boşaldılıb. Mənzil isə daha ağır şəraitdə yaşayan digər Xocalı rayonundan məcburi köçkün olan, mənzilləri yanan şəxsin ailəsinə verilib. Hansı ki, həmin ailənin Buzovna qəsəbəsində mənzilləri yanmışdı.

Hətta əldə etdiyimiz məlumata görə, Zeynalov Budaq İbrahim oğlunun özünün Ramana qəsəbəsində tikili obyekti var".

Qurumdan şikayətçinin "Qaçqınkom"dan olan evlər 18 min manatdan satılır" ittihamına da cavab verilib:

"Bu ittiham tamamilə yalandır, şər-böhtandır, heç bir əsası yoxdur".

**Məsələ ilə əlaqədar adı çəkilən digər qurum və ya şəxslərin də mövqeyini dərc etməyə hazırıq.**

❑ XALİDƏ

## Goranboyda "Mersedes" "Kamaz"-a çırpıldı, 1 nəfər öldü




**Bakı-Qazax magistralında ölümlə nəticələnən qəza qeydə alınıb. ARB TV xəbər verir ki, Goranboy rayonunun Borsunlu kəndi ərazisində Şəmkir istiqamətində hərəkətdə olan "Mercedes-Benz" markalı avtomobil idarəetmədən çıxaraq arxadan "Kamaz"a çırpılıb.**

Nəticədə minik maşınının sürücüsü, Şəmkir sakini, 36 yaşlı Elçin Həsənov hadisə yerində dünyasını dəyişib.

Fakt araşdırılır.

## Bakıda 12 yaşlı uşaq itkin düşüb

**Bakıda 12 yaşlı uşaq itkin düşüb. APA-nın məlumatına görə, Yasamal rayon sakini, 2005-ci il təvəllüdlü Yusif Aqil oğlu Həsənovun itkin düşməsi barədə polisə məlumat daxil olub. Məlumata görə, o, avqustun 10-da çörək almaq adı ilə evdən çıxıb və geri qayıtmayıb.**

Faktla bağlı araşdırma aparılır.

## Azərbaycanda 15 nəfər iş yerində ölüb

**2017-ci ilin yanvar-iyun aylarında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) xidmət sahəsinə daxil olan müəssisələrdə istehsalatda bədbəxt hadisələr nəticəsində 15 nəfər həlak olub.**

AHİK-dən Trend-ə verilən məlumata gorə, bədbəxt hadisələrin əksəriyyəti neft sənayesində baş verib.

Qeyd olunur ki, hazırda istehsalatda bədbəxt hadisələrlə bağlı araşdırmalar aparılır.

## FHN Mingəçevirdə batmaq təhlükəsi ilə üzləşən 5 gənci xilas etdi

**Mingəçevir şəhərindəki su anbarında batmaq təhlükəsi ilə üzləşən şəxslər xilas edilib. APA-nın yerli bürosunun xəbərinə görə, bu gün saat 12:00 radələrində Mingəçevir şəhər sakinləri, 2000-ci il təvəllüdlü gənclər - Heydərov Elgün İlqar oğlu, Əliyev Elgün Veysəl oğlu, Məmmədli Rüstəm Nazim oğlu, Rüstəmov Rəhman Azər oğlu və 1999-cu il təvəllüdlü Əliyev Niyazi Asim oğlu Mingəçevir su anbarının sahilindəki çimərlikdən kirayə götürdükləri qayıqla gəzintiyə çıxıblar.**

Gənclər sahildən 5 kilometr aralı məsafəyədək hərəkət ediblər və sonra geri qayıda bilməyiblər. Onlar spirtli içki qəbul etdikləri üçün qayığı idarə edə bilməyiblər və qayıq çevrildiyi üçün gənclər suda batmaq təhlükəsi ilə üzləşiblər. Dərhal əraziyə FHN-nin Kiçik Həcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin Mingəçevir şəhərindəki Aran dalğıc-axtarış qrupunun xilasediciləri cəlb olunub. Gənclər xilas edilərək sahilə çıxarılıb və aidiyyati üzrə təhvil verilib.

YENİ MÜSAVAT
N 168 (6782) 12 avqust 2017

# Tələbələrin sevincinə zəhər qatan kirayə ev problemi...

## Kamran Əsədov: "Bakıda kirayə evlərin qiyməti rayonlarda yaşayan insanların büdcəsinə uyğun deyil"

**Son günlər mənzil bazarında canlanma yaşanır. Bu, yeni dərs ilinin başlamasına artıq bir aya yaxın bir vaxtın qalması ilə əlaqədardır. Xüsusən də rayonlarda yaşayıb tələbə adını qazanan və sevinən gənclər indi də paytaxta gəlib ev axtarmaq, yaşamaq qayğısı bürüyüb. Dərs ilinin başlamasına bir ay qalsa da bir sıra tələbələr, valideynlər artıq indidən ev axtarışına çıxıblar.**

Onlar ucuz və paytaxta yenicə gəlmiş uşaqlarını əmanət edə biləcək güvənli ev axtarışındadırlar. Biz də kirayə mənzillərin qiyməti ilə maraqlanmaq üçün "Neftçilər" metro stansiyası yaxınlığında "maklerlər bağı" kimi tanınan məkana gedib evlərin qiyməti ilə maraqlandıq. Dərs ilinə 1 ay qalsa da artıq evlərin çoxu tutulub. Evlərin kirayə qiymətləri müxtəlif idi. Hətta ev qıtlığı yaşandığı da deyilirdi. Buna səbəb isə köhnə 2 mərtəbəli evlərin sökülməsi və orada yaşayanların bina evlərində kirayə yerləşdirilməsi ilə bağlı olduğu bildirilirdi. Tələbə üçün kirayə mənzillərə gəlincə isə 100 manata da ev tapmaq olar. Amma bu cür evdə qalmaq tələbə üçün heç də əlverişli deyil. Nəmişlik, soyuq otaq və ailə içi... **İradə adlı qadın** öz evini kirayə 100 manata verdiyini deyirdi: "5 otaqlı evim var. Mən 1 nəfər tələbə qız axtarıram. Ailə içində yaşayacaq. Kommunal mənə aiddir. Evdə qışda qaz peçi yandırırıq, isti olur".

**Makler İnsaf Quliyev** isə 2 mərtəbəli binalarda iki otaqlı mənzilin 220-250 manata verildiyini dedi: "Köhnə 2 mərtəbəli binadır. 2 otaqlı əşyalı mənzildir. Təmirli deyil. Qiyməti 250 manatdır. Evdə istilik sistemləri var. Yəni qışda problem olmayacaq. Təzə binalarda isə evlərin qiyməti 300 manatdan başlayır. Bu cür evlər olduqca rahat olsa da, tələbələr belə evləri tutmur. Çünki oranın kommunalı evin aylıq xərcini gətirib 400 manata qədər çıxarır ki, bu da tələbəyə sərf etmir".

Maklerlər evlərin qiymətinin sentyabrın əvvəllərində daha da bahalaşacağını deyirlər. İndi tələbat o qədər də çox deyil. Tələbələr daha çox sentyabrın 1-dən ev axtarmağa başlayır. Ona görə də maklerlər qiymətlərin həmin ərəfədə bahalaşacağını deyirlər. Göründüyü kimi, ev sahibəsi ilə birgə qalanda evin qiyməti nisbətən münasib olur. Ancaq təbii ki, ailə içi olduqda sizin ailənn xarakterinə öyrəşməyiniz, ev sahibəsinin kaprizlərini götürəcək qədər səbirli olmanız lazımdır. Ancaq ayrı qalmaq istəsəniz qiymət dəyişir. Ev problemi ilə ən çox oğlanlar rastlaşır. Maklerlə söhbətimiz zamanı məlum oldu ki, ev sahibləri daha çox tələbə qızlara ev vermək istəyir. Oğlanlara evini vermək istəyənlər olduqca azdır. Bunun səbəbini isə mentalitet, oğlanların evi səliqəsiz saxlamaları ilə əlaqələndirirlər...

"Maklerlər bağın"da olarkən **Aygün Şirinova adlı qadın** iki qızı üçün ev axtardığını dedi: "Qızımın biri 3-cü kursa keçdi. Bir qızım isə bu il qəbul olub. Qızımın qəbul olunmasına sevinsək də ikisini birdən oxutmaq qayğısı bizi bürüyüb. Qızım ötən il sahibəli evdə qaldı. Ancaq ev sahibəsi yaxşı deyildi. Uşaqlara çimməyə imkan vermirdi. Həftədə bir dəfə icazə verirdi. Hamam ümumi idi. Qızım heç saçını belə yuya bilmirdi. Ev sahibi hamamın qapısını bağlayıb işə gedirdi. Bu cür də insafsızlıq olmaz. İndi 1 otaqlı ev tutacam, iki bacı qalsınlar".

Bu il Xarici Dillər Universitetinə qəbul olan və kirayə ev axtaran **Murad Əliyev** isə ucuz mənzil aradığını dedi: "250-300 manatlıq evlər mənə sərf etmir. Mən Qubadan gəlmişəm. Evdə işləyən yalnız atamdır. O da 300 manat maaş alır. Burada tək ev tutmaqla iş bitmir. Dəftər qələm, kitab, yemək, yol pulu xərcləri də var. Çox çətindir. Mən həm ev, həm də iş axtarıram. Fikrim var ki, gündüz dərsə, axşamlar isə hansısa restoranda ofisiant işləyim ki, ailəmə güc düşməsin. Çox istərdim ki, tələbə yataqxanalarının sayı artsın. Hər universitetin 2-3 tələbə yataqxanası olsun. Rayondan gələn, imkansız tələbələri də kimsə düşünsün artıq".

*Maraqlıdır, tələbələrin mənzil problemi necə tənzimlənməlidir?*

**Təhsil eksperti Kamran Əsədov** Bakıda kirayə evlərinin qiymətinin rayonlarda yaşayan insanların büdcəsinə uyğun olmadığını bildirdi: "Uzun illərdir ki, ali məktəbə qəbul olan tələbələrin bir çoxu regionlardan gəldiyi üçün ev problemi ilə üzləşirlər. Bakıda mənzillərin kirayə qiymətlərinin bahalaşması tələbələrin işini daha da çətinləşdirib. Sovetlər dövründə hər bir universitetin tələbə sayına uyğun yataqxanaları olduğuna görə belə problemlər yaşanmırdı. Lakin Azərbaycan müstəqillik əldə etdikdən sonra baş vermiş Azərbaycan - Ermənistan Dağlıq Qarabağ münaqişəsindən sonra ermənilərin Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində bir milyon məcburi köçkün məcburiyyət nəticəsində həmən yataqxanalarda yerləşdirildi və tələbələrin bundan sonra yerləşdirilməsində ciddi problemlər yaşandı. Rayondan gələn tələbələrin kirayə ev tutmağa imkanının olmadığını danmaq olmaz. Çünki Bakıda kirayə evlərin qiyməti rayonlarda yaşayan insanların büdcəsinə uyğun deyil. Bu sahədə ciddi problemlərdən biri də odur ki, kirayə verənlə ev sahibi arasında münasibətləri tənzimləyən qanun olsa da, müqavilələr bağlanmır. Kirayə müqavilələrinin bağlanmaması problemdir. Bu zaman həm vergidən yayınma halları baş verir, həm də tələbənin kirayə zamanı vəzifə və öhdəlikləri həll olmur. Hətta kirayə verənin də öhdəlikləri, vəzifələri var ki, bu ciddi boşluq kimi ortada qalıb".

**K.Əsədov Azərbaycanda universitetlərin tələbə yataqxanasının olmamasına çox böyük ehtiyac olduğunu dedi:** "Ali təhsil haqqında" qanun qəbul edilməli, daha sonra universitetlərin hər birinin qarşısına yataqxana məsələsini öhdəlik kimi qoymaq lazımdır. Hazırda Xəzər Universitetinin, Memarlıq və İnşaat Universitetinin, Bakı Dövlət Universitetinin, Azərbaycan Pedaqoji Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbə yataqxanaları olsa da, onlar çox cüzi sayda tələbənin bu problemini həll edə bilir. Tələbələrin kirayə evlərdə yaşaması onların təhlükəsizlik məsələsini də ciddi sual altına alır. Onlar uzaq məsafələrdən təhsil aldıqları məkana gəldikləri üçün istər yolda istərsə də yaşadıqları məkanda hər an ciddi problemlərlə üzləşə bilirlər. Bu məsələnin yeganə çıxış yolu tələbə yataqxanalarının istifadəyə verilməsidir".





❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Gənc müğənnini öldürən meningit xəstəliyi

## Sığotalanmadığımız təhlükə haqqında bilmədiklərimiz

**Gənc sənətçi Mila Əminə Türkiyədə dünyasını dəyişib. 29 yaşlı sənətçinin ölümünə səbəb isə meningit xəstəliyi olub. Sənətçinin xalası qızı Rübabə Səfərovanın sözlərinə görə bir ay əvvəldən Miladа baş ağrıları olub:**

"Həmin vaxt apardıq 1 saylı Şəhər Klinik Xəstəxanasına. Orada həkimlər belindən su çəkiblər. Lakin onun yanında heç bir yaxını olmayıb. Biz o həkimləri də məhkəməyə verəcəyik. Ayaqları tutulurdu, gözü görmürdü, məcbur qalıb onu Türkiyəyə apardıq. Artıq gec imiş. Son günlərini komada keçirdi. Beyninə çirk yığılmışdı. Həkimlər komada ola-ola onu əməliyyat etdilər ki, çirki təmizləsinlər. Amma yenə də xeyri olmadı".

Qeyd edək ki, sənətçinin ölümünə səbəb olan meningit xəstəliyi haqqında əksəriyyət çox az məlumatlıdır. Adı çəkilən xəstəlik son illərdə bütün dünyada geniş yayılmağa başlayıb. Hətta bu ilin aprel ayında Nigeriyada 438 nəfər bu xəstəlikdən dünyasını dəyişib. Təkcə bir həftə ərzində 102 xəstə xəstəliyin qurbanına çevrilmişdi.

*Ölkəmizdə də meningit xəstəliyindən əziyyət çəkən insanlar var. Bəs ölüm saçan bu xəstəlik necə yaranır? Xəstəlikdən necə qorunmaq olar?*

**Həkim Vaqif Qarayev** məsələ ilə bağlı "Yeni Müsavat"a danışıb:

"Öncə bir məsələni qeyd etmək istəyirəm. Mətbuatdan oxudum ki, gənc sənətçinin yaxını bildirib ki, "xəstəxanada sənətçinin belindən su çəkiblər, xəstənin yanında heç kim olmayıb və biz həkimləri günahlandırırıq". Bütün ölüm hallarında mərhumun yaxınları həmişə mətbuata şikayətlənərkən dərhal "açar" sözünü ya bilərəkdən demir, ya da ki, mətbuat dərc etmək istəmir. Bu da oxucuda elə bir təəssürat yaradır ki, həkimlər günahkardır.



Meningit xəstəliyinə gəldikdə isə bu xəstəlik beyin qişalarına xəstəlik törədicilər düşəndə meningit yaranır. Xəstəliyin müxtəlif formaları var - virus və bakterial meningitlər. Virus meningitləri gedişata görə çox yüngül olur və müalicəyə asan tabe olurlar.

Bakterial meningitlər isə həddindən artıq ağır olur. Onun gedişatı da, müalicəsi çətindir. Bakteriya birbaşa beyinə daxil ola və beyni zədələyə bilir".

**Vaqif Qarayev xətəliyin əlamətlərindən də söz açdı:**

"Bakteriya beyni zədələyidi zaman artıq baş ağrıları, ürəkbulanma, oriyentasiyanın itirilməsi, kəskin hərarət baş verir. Əgər vaxtında həkimə müraciət etməyəndə beyində artıq irin formalaşır, qıcolmalar baş verir, xəstə huşunu itirir, komaya düşür. Yəni onu vurğulamaq istəyirəm ki, bakterial meningit bu xəstəliyin digər növləri arasında ən ağır olanıdır. Ona görə də yuxarıda qeyd etdiyim əlamətlər kimdəsə baş verirsə və davamlıdırsa, mütləq həkimə müraciət etməlidir.

Qeyd edim ki, sənətçinin ölümü haqda danışan yaxını qeyd edib ki, onun belindən su çəkiblər. Bəli, bu proses mütləqdir. Lakin xəstə sonradan niyə Türkiyəyə aparılıb, həkimlər nə deyib, bu sual olaraq qalır. Məlum olduğu kimi, sənətçi Türkiyə xəstəxanasında koma vəziyyətində olub. Bir həkim kimi bildirmək istəyirəm ki, əgər sənətçi vaxtında həkimə müraciət etsəydi, bəlkə də onu xilas etmək olardı".

**Həkim vurğuladı ki, meningit insanı ölümə apara bilən xəstəlikdir:**

"Ümumiyyətlə, qrip çox ağır xəstəlikdir və onun ağır formalarından biri də meningitdir. Bu xəstəlik insanı ölümə apara bilir. Bəzən körpə uşaqlarda qulaq iltihabı olur və onlar fasiləsiz olaraq qışqırıb, ağlayırlar. Bu çox pis əlamətdir və meningitin başlanğıcı kimi qəbul etmək olar. Ona görə də valideyn aptekdən sakitləşdirici, qızdırma salan dərmanlar almaqdansa mütləq həkimə müraciət etməlidir. Həmçinin də qulaqdibi xəstəliyi də meningit yarada bilir".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT

Son səhifə

N 168 (6782) 12 avqust 2017



# Bəstəboylu kişilərin ölçüləri kiçilir, ömrü uzanır

**Amerikalı alimlər qadınlara tövsiyə edirlər ki, ərə getmək üçün balaca boylu kişiləri seçsinlər. Bunu deməyə əllərində əsasları da var. Bəstəboy kişilərin ucaboylularla müqayisədə bəzi üstün cəhətləri var. Bu kişilər ailə ittifaqına daha da sadiqdirlər. Ucaboylar isə digərlərindən daha tez ailə qururlar. Alimlərin sözlərinə görə, bəstəboy kişilər bu çatışmazlığı kompensasiya etmək üçün daha çox qazanırlar.**

Ucaboy kişilər öz üstünlüklərindən istifadə edərək daha çox təminatlı qadınların diqqətini cəlb etməyə çalışırlar. Bəstəboy kişilərin isə təhsilləri adətən ucaboylardan yaxşı olur. Bu da boy fərqinin kompensasiyasıdır. Digər araşdırma göstərib ki, bəstəboy (boyları təxminən 157 sm və daha az olan) kişilər digərlərindən daha çox yaşayırlar. Havay Universitetinin alimləri deyirlər ki, bəstəboy kişilərdə FOXO3 geni mövcuddur. Bu genin sayəsində bədən ölçüləri kiçilir, ancaq ömür uzanır. Bəstəboy kişilərdə xərçəng xəstəliyinə yoluxmaq ehtimalı az olur.

# Naməlum şəxs amerikalının evinə girib, yır-yığış etdi

**Amerikanın Vaşinqton şəhərində naməlum şəxs səfərdə olan bir amerikanın evinə girərək, oraları səliqəyə salıb. Bu barədə 10 avqustda "Associated Press" xəbər yayıb. Səfərdən geri qayıdan amerikan evinə kiminsə əl gəzdirdiyinin fərqinə varıb. Bəzi əşyalar onun qoyduğu yerdə deyildi.**



Mənzil sahibi deyir ki, onun xadiməsi heç vaxt olmayıb. Polisdə isə ehtimal edirlər ki, mənzilə kimsə qeyri-qanuni şəkildə girib. Şübhəli şəxsin foto robotu isə hələ hazırlanmayıb. 1 avqustda isə Avstraliyada bir oğru qarət üçün getdiyi bir evdə elit şampandan içəndən sonra orada yuxuya getmişdi. Polisin onu yaxalaması isə heç də çətin olmamışdı.

# Qızını uşaq evinə göndərmək üçün kuryer çağırdı

**Çin sakini olan bir qadın yeni doğulan qızını uşaq evinə göndərmək üçün kuryer xidmətindən istifadə edib. Bu barədə yerli nəşr olan "South China Morning Post" xəbər yayıb. Nəşrin yazdığına görə, qadın poçt idarəsinə plastik torba ilə gəlib. Daha sonra paketin qımıldandığını görən poçt işçiləri oradan uşaq səsi gəldiyini eşidiblər. Kuryer çantanın içindəkinə baxmaq, onun çəkisini yoxlamaq istəsə də, qadın buna imkan verməyib. Bundan sonra poçt işçisi polis çağırıb. Körpə yerli xəstəxanaya göndərilib. Həkimlər müəyyən ediblər ki, körpə bir neçə gün öncə dünyaya gəlib və onun durumu stabildir. Uşağın anası polis tərəfindən saxlanılıb. Onu uşağını atmaqda ittiham edirlər. Qadını 5 ilə qədər türmə həyatı gözləyir.**

10 avqustda isə Sverdlovsk vilayətində iki körpənin meyidi tapılıb. Ekspertiza müəyyən edib ki, uşaqlar ölü doğulublar, onların bədənində hər hansı xəsarət yoxdur. 6 avqustda isə Yekatenburq küçələrindən birində yoldan keçənlər içində yeni doğulmuş uşaq olan torba tapıblar. Körpəni dərhal klinik xəstəxanaya çatdırıblar.



# O, soyadının "Zebra" olmasını istədi və...

**Avstriyanın Konstitusiya Məhkəməsi ölkə sakininə Zebra familiyası daşımaq hüququ verib. Bu barədə 9 noyabrda "İnternational Business Times" nəşri xəbər verib. Avstriyalı bu arzusuna bir ildir ki, nail olmağa çalışırdı. Daha öncə məhkəmə onun bu müraciətini rədd etmişdi.**

Əsas olaraq isə onu gətirmişdi ki, qanun Avstriyada qəbul olunmayan, təhqir, aşağılayıcı kəlmələrin familiya kimi götürülməsinə imkan vermir. Hakim qeyd edib ki, "zebra" sözü sırf heyvan adı kimi qeydə alınıb və onun soyad olaraq qeydiyyata düşməsi yolverilməzdir. Amma iddiaçı bu arzusundan vaz keçməyib və apelyasiya məhkəməsinə müraciət edib. O, iddiasında bildirib ki, onun əcdadları yüz illər boyu "Zebra" soyadını daşıyıblar və təxminən 60 il öncə bu soyaddan imtina ediblər. Bundan başqa, Avstriyada başqa familiyalar da var ki, alman dilində heyvan adları ilə səsləşir. Məsələn, Fuks(tülkü), Biber(bəbir), Ştraus ("straus". Konstitusiya Məhkəməsi iddialara növbəti dəfə nəzər yetirdi və iddiaçının daha öncə istifadə etdiyi soyadına qayıtması tamamilə qanunidir.




**QOÇ** - Astroloji göstəricilər əsəblərinizdə hələ də gərginlik olduğunu bəyan edir. Nəzərə alsaq ki Ay bürcünüzdədir, deməli, daha ehtiyatlı olmalısınız. Maddi baxımdan uğurlu ola bilər.

**BUĞA** - Ulduzların düzümü yalnız maliyyə məsələlərində uğurlara yiyələnəcəyinizdən xəbər verir. İstənilən sövdələşmə və ya işbirliyi xeyrinizə olacaq. Risk etməkdən qorxmayın.

**ƏKİZLƏR** - Yaxşı olar ki, bürcünüz haqqındakı bu proqnozu oxuyan eşidən kimi səfərə çıxasınız. Sizin üçün darıxanların çox olduğunu nəzərə alıb tövsiyələrimizə əməl edin. Səs-küylü şəhərdə nə tapmısınız?!

**XƏRÇƏNG** - Havaların qızmarlığını nəzərə alıb vaxtınızı əyləncə və istirahətə həsr edin. Çünki hansısa əməkdaşlıq və ya sövdələşmə uğursuz olacaq. Qonaqlıq və yeni tanışlıq üçün olduqca münasib vaxtdır.

**ŞİR** - Həmişə olduğu kimi indi də ulduzlar maliyyə məsələlərində qənaətcil olmağınızı məsləhət görür. Gələcək planlarınızı düşünün. Nahardan sonra mütləq müqəddəs yerlərə baş çəkin.

**QIZ** - Bu gün sevdiyiniz adamlarla bir yerdə olmağınız sizə rahatlıq gətirəcək. Ötən dövrlərin nostaljisinə qapılmaqdansa nikbin nəzərlərlə gələcəyə baxmağınız məsləhətdir.

**TƏRƏZİ** - İştirakçısı olduğunuz görüşlərdə hövsələsizlik etməyin. Son vaxtlar təmkininizin pozulması ulduzların xoşuna gəlmir. Qeybət amilini isə özünüzdən qətiyyətlə uzaqlaşdırmalısınız.

**ƏQRƏB** - Bəxtinizdə sevgi dolu bir təqvim var. Odur ki, özünüzü məhəbbət ümmanına salmaqla daxili sıxıntılarınızı xeyli azalda bilərsiniz. Maliyyə uğursuzluqlarına görə narahat olmayın.

**OXATAN** - Uğurlu tarix hesab etmək olar. Hansısa gərginlik və ya münaqişə gözlənilmir. Deməli, nəzərdə tutduğunuz vəzifələrin əksəriyyətini reallaşdırmaqda da problemlə üzləşməyəcəksiniz.

**OĞLAQ** - Yay olmasına baxmayaraq, istirahətdən daha çox fəaliyyətə yer ayırmalısınız. Çünki təxminən saat 12-dən sonra şəxsi işlərinizdə əsaslı dönüş yarana bilər. Bu yönümdə sizə dəstək də veriləcək.

**SUTÖKƏN** - Sevgi-ailə münasibətlərində müəyyən mübahisələr gözlənildiyindən bəri başdan buna hazır olmalısınız. Əmin olun ki, bütün münaqişələri yalnız siz yoluna qoya bilərsiniz.

**BALIQLAR** - Avqustun bu qaynar gündə bütün vacib işlərinizi saat 16-ya qədər başa çatdırmağa çalışın. Çünki sonrakı ərəfədə bütün cəhdləriniz boşa çıxa bilər. İnsanlarla xoş davranın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Toya gedəcək vertolyot türmədə yerə endi

**Banqladeşdə yaxınlarının toyuna getmək üçün vertolyot kirayələyən qonaqlar səhvən sərt rejimli türmənin ərazisinə düşüb. Bu barədə lenta.ru saytı yerli nəşr olan "Dhaka Tribune"a istinadən xəbər yayıb. Türmənin nəzarətçiləri dərhal vertolyotu dövrəyə alıblar. Onlar düşünüblər ki, bu vertolyot hansısa bir məhbusun qaçma əməliyyatı üçün kirayələnib.**



Türmə rəhbərliyi isə öz növbəsində pilotu və toya gedən qonaqları sorğu-suala tutandan sonra onları buraxıblar. Türmə rəhbərliyi yerli mətbuata açıqlamasında bu faktı təsdiqləyib. Vertolyotun məxsus olduğu "Meghna Aviation" şirkəti isə bu yanlışlığa görə hakimiyyətdən üzr istəyib. Pilot öz səhvini belə əsaslandırıb ki, enəcəyi yeri düzgün planlaşdırmadığı üçün belə bir durum yaranıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100